QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 095 (5567) 18 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Naxçıvan müasirləşir və inkişaf edir

*<u>İlham Əliyev:</u> "Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır"*



Səh 2

Turizm sürətlə inkişaf edən iqtisadi sektora çevrilib



7

Nursultan Nazarbayev: "Heydər Əliyev MDB-nin təşəkkülündə böyük rol oynayıb"



4

Vasif Talıbov İsveç Krallığının ölkəmizdəki səfiri ilə görüşüb



4

Azərbaycan XİN Laçının işğalının 26-cı ildönümü ilə əlaqədar açıqlama yayıb



6

"SƏS" Media Qrupu UNEC-lə birgə konfrans keçirib



8

Uels şahzadəsi Çarlz Londonda AZƏRTAC da daxil olmaqla bir qrup media rəhbəri ilə görüşüb



4

12

"Küçə naziri"nin siyasi fərqlilikləri: Paşinyan populizm girdabında



14

Radikal müxalifəti "qrant müharibəsi" bürüyüb!



16

"Atletiko Madrid" üçüncü dəfə UEFA Avropa Liqasının qalibi olub



# Naxçıvan müasirləşir və inkişaf edir

## *İlham Əliyev: "Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır"*

***Bu gün özünün ictimai-siyasi və sosial-iqtisadi həyatında uğurlar əldə edən Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Əldə olunan nailiyyətlər müstəqil dövlətimizin sürətli inkişafına təkan verən uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Müasir Azərbaycan dövlətinin Qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır.***







Azərbaycanın hər yerində olduğu kimi, bu gün Naxçıvan Muxtar Respublikası da yeni inkişaf dövrünü yaşayır. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvana səfəri zamanı qeyd etdiyi kimi, Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq və yaşıllaşdırma işləri aparılır: "Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır".

Azərbaycan Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikasına qayğı və diqqət hər zaman olub və bu gün də var. Prezidentin Naxçıvana sayca 14-cü dəfə olan bu səfəri və respublikada 135-dən çox obyektin açılışında iştirakı elə bu diqqətin nümunəsidir. Son illərdə Naxçıvanda sənayedə, tikintidə, iqtisadiyyatda və sosial həyatın bütün sahələrində böyük uğurlar qazanılıb. Qəbul edilən dövlət proqramları vaxtında icra olunub və nəzərdə tutulmuş tədbirlərin, infrastruktur layihələrinin reallaşdırılması təmin edilib və sosial-iqtisadi həyatın bütün istiqamətləri üzrə müsbət dinamika əldə olunub. Belə ki, Naxçıvanda bütün qəsəbə və kəndlər müasirləşib, yenidən qurulub və asfalt yollar salınıb. Son illər muxtar respublikanın kəndlərində dövlət dəstəyi və güzəştli şərtlərlə verilən kreditlər hesabına yüzlərlə kiçik istehsal və emal müəssisəsi yaradılıb. Bu gün Naxçıvanda sənayenin və aqrar sahənin inkişafı yeni sahibkarlar təbəqəsi yaradıb.

### NAXÇIVANIN UĞURLU İNKİŞAFI ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, mövcud sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda həm də təhsilin və elmin inkişafına yönəldilib. Ümumilikdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsilin və elmin inkişafına istiqamətlənən çox mühüm layihələr icra olunub. Təsadüfi deyil ki, son illərdə ölkə ərazisində 3 mindən çox məktəb tikilib və bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub. Bütün bunlar, Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasından da yan ötməyib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvana səfəri zamanı yeni təhsil müəssisələrinin istifadəyə verilməsi bunun əyani göstəricisidir. Belə ki, Naxçıvan şəhər Qaraxanbəyli inzibati-ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbinin, eləcə də, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının istifadəyə verilməsi fikrimizi əsaslandırır. Qeyd edək ki, Naxçıvan Müəllimlər İnstitutu 2003-cü ildə fəaliyyətə başlayıb və bu təhsil ocağı ötən dövrdə öz fəaliyyətini genişləndirib və ali təhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edib. İnstitutun yeni binası müasir standartlara cavab verir. Cənab İlham Əliyev bildirib ki, bu binanın tikilməsi onu göstərir ki, Naxçıvan uğurla və sürətlə inkişaf edir.

**Ardı Səh. 3**

# Naxçıvan müasirləşir və inkişaf edir

## İlham Əliyev: "Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır"





Əvvəli Səh. 2

Naxçıvanın uğurlu inkişafının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bilirən Cənab Prezident Ulu Öndərin sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərdiyini və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görüldüyünü bildirib. Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra Naxçıvan Muxtar Respublikası da sabitliyə və tərəqqiyə qovuşmuş, davamlı inkişaf və əmin-amanlıq yoluna çıxmışdır. 1993-2003-cü illər ərzində muxtar respublikada sənaye məhsulunun həcmi 3 dəfə, kənd təsərrüfatında ümumi məhsul istehsalı 4 dəfə artmışdı. Vurğulayaq ki, Ulu Öndərin Azərbaycan Prezidenti kimi siyasi hakimiyyəti dövründə Naxçıvan Muxtar Respublikasında 96 təhsil müəssisəsi, 38 səhiyyə, 94 mədəniyyət obyekti, 73 inzibati bina tikilmiş və ya yenidən qurulmuşdur. Bu dövrdə əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri və təbii fəlakətdən zərər çəkmiş əhali üçün 47 fərdi ev tikilmiş, 66 körpü, 74 nasos stansiyası və 386 digər infrastruktur obyektləri istifadəyə verilmişdir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası bu gün də inkişaf edir: "Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən, Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət və çox böyük məhəbbət tələb edir".

### "NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ARTIQ ON İLDƏN ÇOXDUR Kİ, QAZLAŞDIRMA 100 FAİZ TƏMİN EDİLİBDİR"

Naxçıvanda böyük infrastruktur layihələri icra edilib qazlaşdırılma ilə bağlı məsələlər tam şəkildə öz həllini tapıb. Hazırda muxtar respublikada qazla təmin olunmayan heç bir kənd və oba qalmayıb.



Naxçıvanın ən ucqar kəndlərində belə sakinlər mavi yanacaqdan istifadə edirlər. "Qazlaşdırma 100 faiz təmin edilibdir", - deyən dövlət başçısı Azərbaycanın ümumi qazlaşdırılmasının təqribən 93-94 faiz səviyyəsində təmin edildiyini və bu ilin sonuna qədər 95 faizə çatacağını vurğulayıb: "Ancaq Naxçıvan Muxtar Respublikasında, artıq on ildən çoxdur ki, qazlaşdırma 100 faiz təmin edilibdir".

Cənab Prezident Naxçıvanda elektrik enerjisi ilə bağlı məsələlərin də öz həllini tapdığını bildirib: "Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu Öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi... Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə olan Ordubad Su-Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaqdır".

### "YAXIN GƏLƏCƏKDƏ NAXÇIVANIN BÜTÜN ŞƏHƏRLƏRİNİN İÇMƏLİ SU-KANALİZASİYA LAYİHƏLƏRİ TAM BAŞA ÇATACAQ"

Müasir dövrümüzdə Naxçıvanda içməli su layihələri də uğurla icra olunmaqdadır. Belə ki, Naxçıvan, Şahbuz və Culfa şəhərlərinin içməli su layihələri artıq sona yetib. Muxtar respublikanın digər şəhərlərində də bu layihələr davam etdirilir. Prezident İlham Əliyev səfəri çərçivəsində "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak edib. Xatırladaq ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb və layihəyə əsasən, Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Cənab Prezident bunu çox vacib sosial layihə kimi dəyərləndirib: "Naxçıvanın hər bir şəhərində içməli su-kanalizasiya layihələri icra edilir. Artıq Şərur Naxçıvan, Culfa və Şahbuz şəhərlərindən sonra dördüncü şəhərdir ki, bu məsələ öz həllini tam tapıbdır. Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrlərdə içməli su məsələsi həmişə çox ciddi problem kimi insanları narahat edirdi. Ancaq bu gün Şərur şəhərinə tam təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun tərzdə içməli su verilibdir. Digər şəhərlərdə layihələr icra edilir və icra ediləcək. Yaxın gələcəkdə Naxçıvanın bütün şəhərlərinin içməli su-kanalizasiya layihələri tam başa çatacaq. Bu, ölkəmizin gücünü, qüdrətini və bizim sosial siyasətimizi göstərir. Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü irادə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir".

### GÖZƏL TƏBİƏTİ, İQLİMİ, HAVASI, MƏNZƏRƏSİ, BİNALARI VƏ ƏN ÖNƏMLİSİ, GÖZƏL İNSANLARI OLAN GÖZƏL MƏKANIN ADI NAXÇIVANDIR

Qədim tarixə malik olan Naxçıvanı sivilizasiyanın beşiyi adlandırırlar. Yaşı əsrlərlə ölçülən qədim türbə və tikililər, daş kitabələr özündə sivilizasiyanın ilkin mərhələlərinin əks etdirir. Qədim qalalar Naxçıvanın min illərin o üzündə qalmış tarixindən xəbər verir. Həm yazılı mənbələr, həm də burada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri, bu gün də qorunub-saxlanılan neçə-neçə abidə, bir daha sübut edir ki, bu diyarda şəhər mədəniyyətinin tarixi 5 min ilə yaxındır.

Son illər muxtar respublikada Naxçıvanın tarixi və mədəniyyəti ilə bağlı mindən artıq kitab nəşr edilib, bir-birindən əhəmiyyətli beynəlxalq simpoziumlar və elmi konfranslar keçirilib, 1200-dən çox yerli, ölkə və dünya əhəmiyyətli tarixi abidə öyrənilərək pasportlaşdırılıb. Azərbaycan memarlığında özünəməxsus yeri olan bu abidələr tarixdə Naxçıvan memarlıq məktəbinin nümunələri kimi yaşayır. Bu gün Naxçıvanda dünya memarlıq məktəbinin şah əsəri olan bu qiymətli tarixi tikililər qorunaraq və əsaslı surətdə bərpa olunaraq, gələcək nəsillərə ötürülür. Naxçıvan memarlığının nadir inciləri hər zaman diqqətdə saxlanılır. Azərbaycan xalqının qədim tarixini və mədəniyyətini özündə yaşadan Naxçıvan əbəs yerə 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" seçilməyib. Bu əlamətdar hadisə ilə bağlı Naxçıvanda tədbirlər keçiriləcəkdir. Bura gələn hər kəs qədim və müasir Naxçıvanla tanış olacaqlar. "...bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var", - deyən Cənab İlham Əliyev bildirib ki, gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkanın adı Naxçıvandır.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1086-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1085-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Xaləddin İsgəndərovun Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1078-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

## Vasif Talıbov İsveç Krallığının ölkəmizdəki səfiri ilə görüşüb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım İnqrid Tersman ilə görüşüb.

Səfiri Naxçıvanda görməyindən məmnunluğunu bildirən Ali Məclisin Sədri deyib ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan-İsveç əlaqələrində iştirak edir, Naxçıvan Dövlət Universiteti isə TEMPUS və ERASMUS proqramları çərçivəsində İsveç universitetləri ilə əməkdaşlığa malikdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının xarici ölkələrlə əlaqələrindən və mövcud əməkdaşlıq imkanlarından bəhs edən Ali Məclisin Sədri yeni texnologiyaların tətbiqi, turizm və digər sahələrdə əməkdaşlıq üçün potensialın olduğunu bildirib.

Ali Məclisin Sədri səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində mühazirə oxumaq təşəbbüsünə görə xanım İnqrid Tersmana təşəkkür edib.

Göstərilən xoş münasibətə görə minnətdarlıq edən İnqrid Tersman İsveç Krallığının Naxçıvan Muxtar Respublikasına səfər edən ilk səfiri olmaqdan məmnunluğunu bildirib. Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə tanışlığın əməkdaşlıq üçün faydalı olacağını qeyd edən diplomat bu sahədə səylərini artıracağını vurğulayıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

## Müdafiə naziri Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb



Mayın 17-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ali Hərbi Məktəbinin rəisi, general-mayor Füzuli Salahov, Türkiyə Respublikası Quru Qoşunları Məktəbinin rəisi, briqada generalı İsmayıl Güzeller və Gürcüstan Milli Müdafiə Akademiyasının rektoru, polkovnik Zaza Caparidze ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, martın 31-də Giresun şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalan müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən, hər üç ölkənin hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıda keçirilən görüşü çərçivəsində aparılan müzakirələrin, təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini deyən müdafiə naziri belə tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini vurğulayıb. General-polkovnik Z.Həsənov Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıdakı tədbirinin hər üç ölkənin müdafiə nazirləri və Silahlı Qüvvələri Baş Qərargah rəislərinin bu günədək keçirdikləri görüşlərin davamı kimi qiymətləndirib, bu əməkdaşlığın regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib. Tərəflər, həmçinin hər üç ölkənin hərbi təhsil müəssisələri arasında kursantların qarşılıqlı təhsil almaları, birgə təlimlərin, idman, bilik yarışlarının keçirilməsi və bir sıra digər məsələləri müzakirə ediblər.

Görüşün təşkilinə və qonaqpərvərliyə görə general-polkovnik Z.Həsənova minnətdarlıqlarını ifadə edən məktəb rəhbərləri də Bakıda aparılan üçtərəfli səmərəli müzakirələrin təmsil etdikləri ali hərbi təhsil müəssisələri arasında əlaqələrin daha da inkişafına, birgə fəaliyyətlərin həyata keçirilməsi işinə mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

## Nursultan Nazarbayev: "Heydər Əliyev MDB-nin təşəkkülündə böyük rol oynayıb"



Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev təkcə Qazaxıstanla Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsində deyil, həm də Müstəqil Dövlətlər Birliyinin təşəkkülündə böyük rol oynayıb. Bu barədə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev haqqında qazax dilinə tərcümə olunmuş kitaba Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin yazdığı ön sözdə deyilir. /Trend/

Astanada kitabın təqdimatı zamanı Prezident kitabxanasının direktor müavini Botaqoz Kaipova deyib: "Bir çox ekspertlər Azərbaycanın Ümummilli Liderindən danışarkən deyirlər: böyük ürəkli, istənilən millətin onunla fəxr edə biləcəyi insan". Qeyd edək ki, kitabın 500 nüsxədən ibarət ilk tirajını Qazaxıstanın məktəb və universitet kitabxanalarında yerləşdirəcəklər.



## Siyavuş Novruzov Mehdi Arifzadə ilə görüşüb

Mayın 17-də YAP İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov İran İslam Respublikasının Azərbaycandakı səfirinin ikinci katibi Mehdi Arifzadə ilə partiyanın mənzil qərargahında görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP İcra katibinin müavini Siyavuş Novruzov Azərbaycan ilə İran arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin daha da inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib. Qeyd olunub ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

## Uels şahzadəsi Çarlz Londonda AZƏRTAC da daxil olmaqla bir qrup media rəhbəri ilə görüşüb



Londonun dünyada məşhur olan "Tate Britain" incəsənət qalereyasında Böyük Britaniyanın Press Association informasiya agentliyinin 150 illiyi münasibətilə təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirə Böyük Britaniyanın Reuters, ABŞ-ın Associated Press, Rusiyanın TASS, Türkiyənin Anadolu, İtaliyanın ANSA, İsveçin TT (Avropa Xəbər Agentlikləri Alyansının sədri), Rumıniyanın Agerpress, Bolqarıstanın BTA, Polşanın PAP, Yunanıstanın ANA/MPA və bir çox digər ölkələrin xəbər agentliklərinin rəhbərləri və nümayəndələri, İngiltərənin media qurumlarının təmsilçiləri qatılıblar. Mərasimdə AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresi və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının prezidenti Aslan Aslanov iştirak edib. Tədbirdə Böyük Britaniya Krallığının vəliəhdi, Uels şahzadəsi Çarlz AZƏRTAC da daxil olmaqla bir qrup media rəhbəri ilə görüşüb, mətbuatın inkişafında texnoloji yeniliklərlə maraqlanıb. Press Association agentliyinin icraçı direktoru, Dünya Xəbər Agentlikləri Konqresi Şurasının sədri Klayv Marşal çıxışında qeyd edib ki, ötən əsr ərzində mediada çox böyük irəliləyişlər olub. "Bizim agentlik də yarandığı andan ötən 150 il ərzində dəyişib, texnologiyalar işimizin bir hissəsinə çevrilib. Lakin dəyişməyən bizim dürüstlüyümüz və obyektivliyimiz olub. Bu da bizim etibarlı media kimi imicimizin yüksək olmasını şərtləndirib", - deyə o bildirib. Xəbər agentlikləri rəhbərləri ilə görüşlərdə onlara Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, o cümlədən bu ilin oktyabrında planlaşdırılan Bakı Beynəlxalq Humanitar Forumu barədə məlumat verilib.

AZƏRTAC və Press Association 2008-ci ildən Avropa Xəbər Agentlikləri Alyansı çərçivəsində, sonradan isə Dünya Xəbər Agentlikləri Konqresi Şurasında əməkdaşlıq edir. Press Association 2016-cı ilin noyabrında Bakıda keçirilən Dünya Xəbər Agentliklərinin V Konqresinin təşkilati işində yaxından iştirak edib. İki agentlik arasında qarşılıqlı faydalı əlaqələr mövcuddur.

## Sahibə Qafarova: "Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizin şanlı səhifələrindən biridir"

***"Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. Ötən əsrin əvvəllərində müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycan xalqı tərəfindən yaradılması bizim üçün böyük qürur mənbəyi olan tarixi hadisədir". Bu fikirləri Milli Məclisin deputatı Sahibə Qafarova deyib.***



S.Qafarova bildirib ki, AXC-nin yaradılması xalqımızın milli kimliyinin, hansı ideallarla yaşamasının son dərəcə parlaq təcəssümü idi. Onun sözlərinə görə, bu, həm də o deməkdir ki, Şərqdə demokratiyanın əsası Azərbaycan xalqı tərəfindən qoyulub: "Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti tarixi bir missiyanı yerinə yetirərək çox genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Milli ordumuzun yaradılması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, teatr və kitabxanaların fəaliyyətə başlaması AXC-nin dövlətçilik baxımından çox qısa müddətdə reallaşdırdığı mühüm məsələlər idi. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ayda həm də xalqımızı dünyaya tanıtmaqla mühüm bir tarixi missiyanı həyata keçirib. O dövrdə yürüdülən xarici siyasətinin ən önəmli uğurlarından biri kimi Versal Ali Şurası tərəfindən 1920-ci ilin yanvarında Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınmasına nail olunması xüsusi qeyd edilməlidir. Artıq 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti 20-dən çox ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçib-seçilmək hüququ verərək bu məsələdə də bir çox dövlətlərə öncüllük etmişdir. AXC bu inqilabi qərarı verərkən Qərbdə bir çox dövlətlər bu barədə hələ heç düşünməmişdilər. AXC dövründə qəbul olunmuş üçrəngli bayrağımız bu gün də müstəqil respublikamızın bayrağıdır".

Millət vəkili deyib ki, Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyev Xalq Cümhuriyyətinin fəaliyyətini daim yüksək qiymətləndirərək bəyan edib ki, müasir müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. "Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı da ilk dəfə məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən rəsmi olaraq qəbul edilib. Həmçinin Cümhuriyyətin 80 illiyinin dövlət tərəfindən yüksək səviyyədə qeyd olunması ilə bağlı Ümummilli Liderin sərəncamları çox mühüm tarixi əhəmiyyətə malik idi. Hazırda isə Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətinə, fəaliyyətinə çox yüksək qiymət verir. Prezident İlham Əliyev tərəfindən 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması da bu mənada mühüm tarixi missiyanın həyata keçirilməsinə xidmət edir. Bu çərçivədə cari il ərzində geniş tədbirlər keçiriləcək ki, həmin tədbirlər vasitəsilə Azərbaycan xalqının zəngin tarixi, dövlətçilik ənənələri, demokratik inkişaf yolu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırılacaq"-deyə, deputat vurğulayıb.

# "Ümidləri doğruldan universitet" kitabı - Ulu Öndərin 95 illiyinə layiqli töhfə



Mayın 17-də Bakı Slavyan Universitetinin nəşr etdirdiyi "Ümidləri doğruldan universitet" kitabının təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə həsr olunan əsərin təqdimat mərasimində dövlət və hökumət rəsmiləri, ölkəmizdəki diplomatik korpusun nümayəndələri, Milli Məclisin deputatları, ali məktəblərin rektorları iştirak ediblər. Tədbirdə BSU-nun rektoru, professor Nurlana Əliyeva Ümummilli Liderin ölkəmizin müstəqilliyinin bərpası, dövlətçiliyimizin qorunması və ictimai-siyasi sabitliyin bərqərar olması sahəsindəki fəaliyyətindən, Azərbaycanın inkişafı və beynəlxalq münasibətlər sisteminə inteqrasiyasındakı rolundan danışıb. Rektor Ulu Öndərin müasir dünyanın mürəkkəb geosiyasi reallıqları fonunda xalqımızın milli mentalitetinə və demokratik prinsiplərə əsaslanan qüdrətli dövlət yaratdığını bildirib.






N.Əliyeva Ümummilli Liderin azərbaycançılıq ideologiyasının əsas istiqamətlərindən birinin yüksək səviyyəli təhsil yaratmaq olduğunu qeyd edib. Bildirilib ki, bu dahi şəxsiyyət vətəndaş tərbiyəsində təhsilin rolunu daim yüksək qiymətləndirib, onu intellektual gəncliyin yetişdirilməsinin ən mühüm amillərindən biri hesab edib.

BSU-nun tarixindən söz açan rektor rəhbərlik etdiyi ali təhsil ocağının ərsəyə gəlməsində, onun müstəqil Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatına daxil olmasında Ulu Öndərin misilsiz xidmətlərindən danışıb. O deyib: "Bu gün BSU Türkiyə, Rusiya, Fransa, Ukrayna, Bolqarıstan, Çexiya, Polşa, Yunanıstan, Belarus, Rumıniya, Monteneqro və digər ölkələrin universitetləri ilə sıx əməkdaşlıq edir. Bu əlaqələr Azərbaycanı slavyan ölkələrinin xalqlarına, gənclərinə yaxından tanıdır. Həmçinin vətənimizin multikultural bir ölkə olaraq nadir tarixi ənənələrini, xalqımızın mütərəqqi keyfiyyətlərini, yüksək amalını, vətənpərvərlik tərbiyəsini, dünya xalqlarına ehtiramını, dünya mədəniyyətinə sonsuz məhəbbətini təqdim etmək imkanı yaradır. Slavyan ölkələrinin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri ilə universitetin əməkdaşlığı bu əlaqələrin daha əyani şəkildə, dostluq və qardaşlıq səviyyəsində etibarlı bir körpü kimi möhkəmlənməsini təmin edir".

Bu gün də respublikamızın təhsil sistemində innovativ yeniliklər, çevik islahatlar, əsaslı infrastruktur dəyişikliklərinin aparıldığını bildirən N.Əliyeva Prezident İlham Əliyevin Ulu Öndərin uzaqgörən siyasi kursunu təmkinlə, əzmlə, ardıcıl şəkildə davam etdirdiyini diqqətə çatdırıb. Rektor Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın da fəaliyyətində başqa mədəniyyətlərə düzgün, səmimi yanaşmanın aydın göründüyünü bildirib. Ulu Öndərin ortaya qoyduğu azərbaycançılıq ideologiyasının təhsilimizin, mədəniyyətimizin, müstəqilliyimizin ana xətti olduğunu deyən N.Əliyeva BSU-nun da bu dahi şəxsiyyətin reallaşan ümidlərinin nümunəsi olduğunu vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə bildirib ki, kitabın BSU-da ərsəyə gəlməsi bu ali təhsil ocağının kollektivinin Ümummilli Liderə böyük ehtiramının göstəricisidir. O deyib: "Hesab edirəm ki, nəşrin adı da təsadüfi seçilməyib. Çünki BSU həqiqətən də fəaliyyətə başladığı andan bu günədək bütün ümidləri doğruldub".

A.Əlizadə innovativ təşəbbüs və yenilikləri özündə əks etdirən elmin uğurlu gələcəyinin təmini nöqteyi-nəzərindən elmlə təhsilin vəhdətinin vacibliyini vurğulayıb. Diqqətə çatdırıb ki, Ulu Öndər bütün istiqamətlərlə yanaşı həmişə elm və təhsilin inkişafına diqqət və qayğı göstərib. Hazırda bu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Təhsil nazirinin müavini Firudin Qurbanov "Ümidləri doğruldan universitet" kitabının yüksək məziyyətlərindən danışıb və nəşrin Ulu Öndərin 95 illiyinə layiqli töhfə olduğunu söyləyib. Nazir müavini BSU-nun yetişdirdiyi bir çox mütəxəssislərin dövlət qurumlarında yüksək vəzifələrdə çalışdıqlarını qeyd edib. O, bu kadrların ölkəmizin inkişafında böyük rolu olduğunu vurğulayıb. Təhsil sistemində aparılan islahatlardan danışan F.Qurbanov bu islahatların artıq öz bəhrəsini verdiyini diqqətə çatdırıb. Bildirilib ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3500-dən çox gənc xarici ölkələrdə təhsil almaq imkanı əldə edib.

BSU-nun fəaliyyətini yüksək dəyərləndirən Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov nəfis tərtibata malik bu cür kitabların ali təhsil ocaqlarında ərsəyə gəlməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, belə nəşrlərin xarici ölkələrə, universitetlərin kitabxanalarına göndərilməsi zəruridir.

Təhsil eksperti, professor Şahlar Əsgərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov və başqaları ümummilli lider Heydər Əliyevin xalqımızın öz milli varlığını təsdiq etməsində, müstəqil dövlətimizin qurulmasında və güclənməsində, ölkəmizin dünya miqyasında tanınmasında böyük xidmətlərindən danışıb, dahi şəxsiyyətin həmişə elm və təhsilə xüsusi diqqət və qayğı göstərdiyini bildiriblər. "Ümidləri doğruldan universitet" kitabı ilə bağlı fikirlərini bölüşən natiqlər diqqətə çatdırıblar ki, Ulu Öndərin nəşrdə yer alan kəlamları əsəri daha da oxunaqlı edir. Tədbir bədii hissə ilə davam edib.




# "Heydər Əliyev" biblioqrafiyası çap olunub

***Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Heydər Əliyev" fundamental biblioqrafiyası siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının sabiq Prezidenti (1993-2003), xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmişdir.***

Ulu Öndər Heydər Əliyev haqqında bu ilk fundamental biblioqrafiya dünya miqyaslı ictimai-siyasi dövlət xadiminin 1969-2018-ci illərdə Azərbaycan, rus, ingilis, türk, və digər xarici dillərdə nəşr olunmuş kitabları, elmi konqres, sessiya, konfrans materiallarında və elmi məcmuələrdə dərc edilmiş ictimai-siyasi məqalələri, çıxışları və Ulu Öndər haqqında yazılmış materialları əhatə edir. Qeyd edək ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin titanik fəaliyyətinin olduqca genişmiqyaslı olduğunu nəzərə alaraq, dövri mətbuatda Onun yazdığı və Onun haqqında yazılmış məqalələr biblioqrafiyaya salınmamışdır.

"Heydər Əliyev" biblioqrafik göstəricisində ədəbiyyatlar iki əsas bölmədə -"Əsərlərinin biblioqrafiyası" və "Haqqında materiallar" bölmələrində toplanmış və hər bölmədə mövzuya uyğun olaraq, yarımbölmələr verilmişdir.

Akademik Ramiz Mehdiyevin"Heydər Əliyevin qurduğu Azərbaycan əbədi yaşayacaqdır"adlı geniş elmi məqaləsində Ulu Öndərin həyat və fəaliyyətinin bütün məqamları geniş xarakterizə olunur, görkəmli ictimai-siyasi dövlət xadiminin zəngin irsi hərtərəfli araşdırılır, dahi şəxsiyyətin Azərbaycan xalqının müstəqilliyi, müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi titanik fəaliyyəti geniş əhatə olunmuşdur.

Biblioqrafiyada "Görkəmli şəxsiyyətlər və Azərbaycanın görkəmli dövlət, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında" bölməsində Azərbaycanın elm və ictimai-siyasi xadimləri ilə yanşı, dünyanın tanınmış dövlət xadimlərinin də Ulu Öndər haqqında fikirləri və mülahizələri öz əksini tapmışdır.

"Əsərlərinin biblioqrafiyası" bölməsində Heydər Əliyevin kitabları, elmi məqalələri əhatə olunmuşdur. Ulu Öndərin fəaliyyətinin bugünədək çox az öyrənilmiş sahəsi olan "Azərbaycana rəhbərliyinin birinci mərhələsi (1969-1990)" adlı yarımbölmədə siyasi xadimin Sovetlər Birliyi dövründə Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasi fəaliyyəti geniş əks olunmuşdur.

Dünya şöhrətli siyasətçinin haqqında olan materiallar "Həyatı və elmi-ictimai fəaliyyətinin əsas tarixləri", "Həyatı və ictimai-siyasi fəaliyyəti", "Dövlət quruculuğu və xarici siyasət", "Sosial-iqtisadi inkişaf", "Elm və mədəniyyət, milli-mənəvi dəyərlər", "Heydər Əliyev şəxsiyyəti bədii ədəbiyyatda və incəsənətdə" adlı bölmələrdə yer almışdır.

Biblioqrafik vəsaitdə "Heydər Əliyev dünya kitabxanalarında" bölməsində Ulu Öndərin dünyanın 50-yə yaxın ölkəsində və universitet kitabxanalarında hifz olunan əsərləri və Onun haqqında materiallar toplanmışdır. Biblioqrafiyaya daxil edilmiş materiallar xronoloji ardıcıllıqla verilmiş, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır. "Heydər Əliyev" fundamental biblioqrafiyasının layihə rəhbəri Azərbaycan Respublikasının mədəniyyət naziri, fəlsəfə üzrə fəlsəfə doktoru Əbülfəs Qarayev, tərtib edənlər Mədinə Vəliyeva, Mətanət İbrahimova və Aytən Hüseynova, elmi redaktoru, professor, əməkdar mədəniyyət işçisi Kərim Tahirov, redaktoru Gülbəniz Səfərəliyevadır.

Biblioqrafik göstəricini hazırlayarkən Prezident Aparatının Kitabxanasından, AMEA-nın Elmi Kitabxanasından, BDU-nun və digər universitetlərin kitabxanalarındakı seçmə materiallardan və M.F.Axundov adına Milli Kitabxananın fondundan istifadə edilmişdir.

"Heydər Əliyev" biblioqrafiyası Ulu Öndərin 95 illik yubileyinə Milli Kitabxananın ən dəyərli töhfəsidir. Biblioqrafiya elmi tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Ədilə Qocayeva,***
***AJB-nin üzvü***

# Azərbaycan XİN Laçının işğalının 26-cı ildönümü ilə əlaqədar açıqlama yayıb



***Azərbaycan Respublikasının Laçın rayonunun işğalının 26-cı ildönümü ilə əlaqədar Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev açıqlama yayıb.***

Açıqlamada deyilir: Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün davamı kimi 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonu işğal edilib. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min nəfərdən artıq Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır. Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib.

54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib. Həmçinin talan edilmiş Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda Sotheby`s auksionunda 80 min ABŞ dollarına satılıb.

Ermənistan işğalçı tərəf olaraq Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla, məqsədyönlü məskunlaşma siyasəti apararaq, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərini davam etdirir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə qərar qəbul edərək, onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, xüsusən Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirir.

Ermənistanın kəskinləşən hərbi təcavüzü şəraitində BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822 (1993-cü il), 853 (1993-cü il), 874 (1993-cü il) və 884 (1993-cü il) saylı qətnamələri qəbul edərək, Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyərək işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsinə (anneksiya) yönəlmiş siyasət yürüdür.

Beynəlxalq hüququn imperativ normaları və BMT Nizamnaməsinə zidd olaraq Ermənistan tərəfindən Azərbaycana qarşı qeyri-qanuni gücdən istifadənin, həmçinin Azərbaycanın işğal olunmuş ərazilərindən 700 mindən artıq köklü Azərbaycan əhalisinin zorla qovulması ilə onların fundamental hüquq və azadlıqlarının kütləvi pozulmasının nəticələrinin Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan sayı 90 mindən az olan erməni azlığın "öz müqəddəratını təyin etmək" və "insan hüquqları" kontekstində təqdim etmək cəhdləri cəfəngiyatdır və heç bir mənəvi, hüquqi və siyasi çərçivəyə sığmır.

Ermənistan nəhayət başa düşməlidir ki, Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz və işğala əsaslanan status-kvo Ermənistanın özünü təcridinin və bugünkü sistematik sosial-iqtisadi və demoqrafik böhranının əsas səbəblərindəndir. Azərbaycan ərazilərinin işğalına son qoyulması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması hərtərəfli regional əməkdaşlıq üçün imkanlar aça və davamlı sülhün təmin olunmasına töhfə verə bilər.

Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi Laçın, habelə ölkənin digər işğal olunmuş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətinin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi, Azərbaycan dövlətinin şəksiz ayrılmaz hüququdur.

Azərbaycan tərəfi münaqişənin tezliklə həlli istiqamətində beynəlxalq səylərin artırılmasını dəstəkləyərək, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini və vətəndaşlarının pozulmuş hüquqlarını bərpa etmək hüququnu özündə saxlayır.

# "Nalbandyan dövründən qalan patefonun valını dəyişmək vaxtıdır"



"2016-cı il Vyana və Sankt-Peterburq razılaşmalarından danışan Ermənistan XİN-nin nümayəndəsinə xatırlatmaq istərdim ki, həmin görüşlərdə intensiv danışıqlar apararaq Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması razılaşdırılmışdı". Bunu SİA-ya Ermənistan XİN-nin nümayəndəsinin açıqlamasına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. H.Hacıyev deyib ki, insidentlərin araşdırılması kimi texniki məsələlər də buna paralel olaraq aparılmalı idi: "Reallıq bundan ibarətdir. Ermənistan XİN nümayəndəsinə sənədləri düzgün oxumağı və başa düşməyi tövsiyə edərdim. Həm də artıq Nalbandyan dövründən qalan patefonun valını dəyişmək vaxtıdır".

# Konqres iştirakçılarının şərəfinə qala gecəsi təşkil olunub



Dövlət Sərhəd Xidmətinin hərbi hospitalının təşkilatçılığı ilə 15-18 may tarixlərində Bakı şəhərində keçirilən Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Cəmiyyətinin 1-ci Konqresi işini uğurla davam etdirib.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən qəzetimizə verilən məlumata görə, 21 ölkədən 156 nümayəndənin iştirak etdiyi Konqres çərçivəsində dünya səviyyəsində tanınmış cərrahların hərbi cərrahiyyə sahəsində yeni innovativ yanaşmalar haqqında çıxışları dinlənilmiş, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə geniş fikir mübadiləsi aparılmışdır.



16 may tarixində möhtəşəm "Elite Events Hall" zalında Konqres iştirakçılarının şərəfinə qala gecəsi təşkil olunmuşdur. Gecədə Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin baş dirijoru mayor Səməd Vəkilovun, rəqs ansamblının bədii rəhbəri, Azərbaycan Respublikasının əməkdar artisti Nailə Məmmədzadənin rəhbərlik etdikləri yaradıcı kollektivlərin çıxışları qonaqların böyük marağına səbəb olmuş və sürəkli alqışlarla qarşılanmışdır. Konsert proqramının davamında rəqs ansamblının ifasında milli və xarici ölkələrin rəqsləri, DSX nümunəvi hərbi orkestrinin solistləri Tural Ağasıyevin və Fəxri Kazım Nicatın, həmçinin, Azərbaycan Respublikasının əməkdar artisti Afaq Abbasovanın, tanınmış estrada müğənnisi Dilarə Kazımovanın ifasında Azərbaycan və əcnəbi bəstəkarların əsərləri qala gecəsini, xüsusilə, yaddaqalan etmişdir.

***ZÜMRÜD***

# Aqrar sahənin inkişafına nail olmaq üçün innovasiya metodları tətbiq edilməlidir




Bu gün Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin qarşısında mühüm vəzifələr - prioritet məsələlər qoyulub. AZƏRTAC xəbər verir ki, bu sözləri mayın 17-də Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin baş direktoru Ələddin Eyvazov jurnalistlərə müsahibəsində deyib.

Onun sözlərinə görə, aqrar sahənin inkişafına nail olmaq üçün innovasiya və ən müasir suvarma metodları tətbiq edilməlidir. Bütövlükdə isə aqrar elmin inkişafı ilə bağlı ilk növbədə prioritet tədqiqatlar müəyyənləşdirilməli, onların tətbiqi məsələləri müzakirə edilməli, bu tədqiqatların kommersiyalaşdırılması məsələlərinə baxılmalıdır: "Hazırda dünyada, o cümlədən də Azərbaycanda innovasiya siyasətinin ən başlıca məqsədi texnoloji proseslərin səviyyəsinin yüksəldilməsi, rəqabətə davamlı məhsul istehsalının həcminin artırılmasıdır. Bu gün Azərbaycanda ÜDM-in strukturunda elmi təyinatlı məsələlərin həcmi 0,2 faiz təşkil edir. Lakin inkişaf etmiş ölkələrdə bu rəqəm 2-3 faiz arasındadır".

Ə.Eyvazov yeni kadrların hazırlanması məsələsinə də toxunub. Bildirib ki, beynəlxalq tədqiqat mərkəzlərinə kifayət qədər kadrların ezam olunması, onların həmin mərkəzlərdə təlim və tədrisi nəzərdə tutulub.

# Məleykə Abbaszadə: "Nəticələr ötənilki səviyyədədir"



"Mayın 13-də II və III qrup üzrə keçirilən qəbul imtahanının nəticələri ötən ilki səviyyədədir". SİA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. "Siz bilirsiniz iki, DİM nəticələri həm yaz həm də yayda keçirilən qəbul imtahanlarının nəticələri əsasında ən yüksək nəticəni nəzərə alır. Lakin ötən ilin nəticələrini təhlil etdikdə gördük ki, ikinci imtahanlarda iştirak edənlərin nəticəsi 20 faiz daha artmışdı. Bu da o deməkdir ki, builki yaz imtahanının nəticələri yay imtahanında orta hesabla 20 faiz artacaq", -deyə M.Abbaszadə qeyd edib.

O bildirib ki, builki qaydalarda abituriyentlərə fərqli qruplarda imtahan vermək şansı verildiyi üçün builki nəticələr fərqli də ola bilər: "Bəlkə bu il daha fərqli olacaq. Çünki ötən il biz abituriyentlərə imkan verməmişdik ki, bir qrupda iki dəfə imtahan versin. Amma bu il abituriyentlərə birinci dəfə iştirak etdiyi qrupu dəyişmək imkanı vermişik. Belə ki, yaz imtahanlarında II ixtisas qrupunda imtahan verən abituriyentlər yay imtahanında III qrup üzrə imtahanda iştirak edə bilir. Bu baxımdan biz hələ bilmirik ki, bu dəyişmələr necə olacaq və nəticələrə necə təsir edəcək. Yalnız iki sessiya başa çatdıqdan sonra hansısa fikir söyləmək olar".

# Turizm sürətlə inkişaf edən iqtisadi sektora çevrilib

## "Dinamo" otelin istifadəyə verilməsi ölkəmizdə turizmin inkişafına daha bir töhfədir

***Nümunəvi inkişaf modelinə malik olan Azərbaycan regionun lider dövləti səviyyəsinə yüksəlib. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və son 15 ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən məqsədyönlü siyasət sayəsində ölkənin iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atılıb.***

Ölkənin bütün sahələrində olduğu kimi, qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində, Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılıb və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilib. Müasir dövrümüzdə turizm sənayesi iqtisadiyyatın sürətlə inkişaf edən əsas sahələrindən biri kimi ildən-ilə daha da genişlənməkdədir. Ölkəmizdə turizmin inkişafı istiqamətində böyük layihələr icra olunub, müasir infrastruktur yaradılıb. Turizm sənayesinin sürətli inkişafını təmin etmək məqsədilə fərman və sərəncamların imzalanması və dövlət proqramlarının təsdiq olunması bu sahədə ciddi irəliləyişlərə səbəb olub.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 sentyabr 2016-cı il tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı və 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi ölkəmizin turizm sənayesi üçün yeni bir mərhələnin başlanğıcını qoymuş oldu. Artıq bu yolda bir sıra uğurlu addımlar atılıb. Bəli, Azərbaycan dünyanın turizm xəritəsində özünə layiqli yer tutmaqdadır. Turistlər ilin bütün fəsillərində ölkəmizdə gözəl istirahət edə bilirlər. "Şahdağ" Turizm Mərkəzi, "Tufandağ" Qış-Yay Turizm Kompleksinin fəaliyyətə başlaması ilə ölkəmizdə turizmin mövsümiliyi aradan qalxıb. Xarici turistlərin Azərbaycana rahat şəkildə səfər etmələri üçün bir sıra MDB ölkələrinin vətəndaşları vizasız, bir sıra ölkələrin vətəndaşları isə sadələşdirilmiş viza əldə etməklə səfər edə bilirlər. Elektron viza sisteminin yaradılması, daha sonra "ASAN Viza" sisteminin tətbiqi ölkəmizə gəlmək istəyənlər üçün viza alınmasını 3 gün ərzində mümkün edib.



Bütün bunlarla yanaşı, indi paytaxtda və digər şəhərlərdə dünyanın məşhur brend hotelləri fəaliyyət göstərir, turistlərə göstərilən xidmətin çeşidi və keyfiyyəti də ildən-ilə yüksəlir. Bu gün Azərbaycan saysız turistləri qarşılamaq və lazımi səviyyədə yerləşdirmək imkanına malik olan turist ölkəsidir. Müasir dövrümüzdə Azərbaycanda fəaliyyət göstərən turizm şirkətləri və hotellər dünya standartlarına uyğun qurulub. Turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olunub və respublikamıza gələn turistlərin sayı artıb. Yeni turizm zonaları yaradılıb. Son illərdə Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması Azərbaycanda turizmin inkişafına göstərilən diqqətin bir nümunəsidir. Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt", yəni dünyanın səkkiz aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Beləliklə, Bakıda beşulduzlu hotellərin sayı durmadan artır.

Hazırda bölgələrdə ən müasir səviyyədə hotellər tikilir. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. Dövlətin bu sahəyə diqqət və qayğısı, qeyd etdiyimiz kimi, paytaxtla yanaşı, bölgələrdə də mühüm layihələrin icrasına, ən müasir dünya standartlarına cavab verən turizm obyektlərinin, hotel və istirahət mərkəzlərinin inşasına zəmin yaradır.

Bu günlərdə - mayın 11-də isə Bakının Səbail rayonunda "Dinamo" otelinin açılış mərasimi oldu. Nəfis tərtibatla qurulan oteldə aparılan yenidənqurma işləri nəticəsində qonaqların qalmaları, yüksək səviyyədə istirahət etmələri və vaxtlarını səmərəli keçirmələri üçün maksimum imkanlar yaradılıb. Yüksək səviyyədə tikilib istifadəyə verilən otel ölkəmizdə turizmin inkişafına öz töhfəsin verəcəkdir. Otelin açılışında çıxış edən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu otelin fəaliyyətə başlamasını ölkəmizin ümumi inkişafının göstəricisi olduğunu bildirib: "Şəhərimizin gözəlliyi bu gün artıq dünya birliyi tərəfindən tanınır. Ölkəmizdə keçirilmiş böyük tədbirlər, idman tədbirləri, onların arasında, əlbəttə ki, "Formula-1" yarışı dünyanın diqqətini Azərbaycana cəlb edir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi öz qapılarını dostlarının üzünə açır".

Cənab Prezident şəhərin sürətlə inkişaf etdiyini və bu gün Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini bildirib: "...biz irsimizi qorumalıyıq, burada yaşayan insanlar və qonaqlarımız üçün daha da yaxşı şərait qurmalıyıq".

Məlumdur ki, turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Turizmin sosial-iqtisadi inkişafda aparıcı qüvvəyə çevrilməsi gəlirlərin artmasında, sektorla bağlı infrastrukturun qurulmasında, yeni iş yerlərinin yaradılmasında özünü göstərir. Eyni zamanda, Prezidentin Sərəncamı ilə təsdiq edilən regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları əsasında turizm sahəsi üzrə bəndlərin tələbləri çərçivəsində sahibkarlığın inkişafı üçün kreditlər ayrılıb, turizm obyektlərinin inşasının dəstəklənməsi, bir sıra hüquqi sənədlərin hazırlanması sahəsində işlər görülüb. Bu hüquqi sənədlər ölkəmizdə turizmin inkişafına müsbət təsirini göstərir. Turistlərin sayının ötən illərlə müqayisədə artması bu sahənin inkişafının göstəricisidir. Dövlət başçısı ölkəmizə gələn turistlərin sayına diqqəti çəkərək, bildirib ki, bu artım 2016-cı ildə 22 faiz, 2017-ci ildə isə 20 faiz olub: "Bu ilin dörd ayında isə Azərbaycana gələn turistlərin sayı 13 faiz artıbdır. İndi "ASAN Viza" rejimindən istifadə edərək, 90-dan çox ölkədən turistlər gələ bilərlər. Bizim 7 aeroportumuz var və gözəl infrastruktur layihələri icra edilir. Bu yaxınlarda turizm üzrə Dövlət Agentliyi yaradılıb. Əlbəttə, bu agentlik turizmin inkişafına təkan verəcək və Azərbaycanda müasir turizm sənayesi yaradılacaqdır".

Göründüyü kimi, bu gün dünyanın bir çox ölkələrində aparıcı sənaye sahəsinə çevrilən turizm Azərbaycanda da sürətlə inkişaf etməkdədir. Azərbaycanın turizm sahəsində rəqabət imkanları çox yüksəkdir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına daha böyük imkanlar yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "SƏS" Media Qrupu UNEC-lə birgə konfrans keçirib

***Dünən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) və "SƏS" Media Qrupun birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin Varisidir" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə millət vəkilləri, tarixçi alimlər, media qurumlarının rəhbərləri, UNEC-in müəllim və tələbələri, ictimaiyyət nümayəndələri iştirak ediblər.***





Tədbirdən öncə qonaqlar UNEC-in foyesində yaradılmış foto-sərgi və eksponatlarla tanış olublar. Konfransı giriş sözü ilə açan Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən ümdə vəzifələrdən biri də Azərbaycanda ali təhsilin təşkili və ali təhsilli milli kadrların hazırlanması idi: "Hökumət bu məsələni bir tərəfdən ölkədə ali təhsil müəssisələri yaratmaq, digər tərəfdən azərbaycanlı gəncləri xarici ölkələrin müxtəlif ali təhsil müəssisələrinə göndərməklə həll etməyə çalışırdı".

Rektor deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin təntənə ilə qeyd edilməsi hər bir soydaşımız tərəfindən böyük rəğbətlə qarşılanıb: "Çünki bu gün hər bir ziyalı, ictimai-siyasi xadim, bütövlükdə ictimaiyyətin nümayəndələri də bilirlər ki, xalqımızın və milli dövlətçiliyimizin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb bir dövrdə meydana gəlib və çox çətin şəraitdə fəaliyyət göstərib".

Daha sonra "SƏS" Media Qrupun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev çıxış edərək qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir. "Müsəlman Şərqində ilk parlament respublikası xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının formalaşdırılmasına nail olub. Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırıb. Bu, eyni zamanda, İslam dünyası üçün də mühüm hadisə hesab olunur. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqın milli oyanışının məntiqi yekunu kimi dəyərləndirib".

Bəhruz Quliyev əlavə edib ki, Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirib: "1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir".

AMEA-nın müxbir üzvü, millət vəkili Musa Qasımlı çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətini zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyan, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayan bir respublika kimi xarakterizə edib: "Müsəlman dünyasına respublika məfhumunu və məfkurəsini Azərbaycan xalqı gətirdi. Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman Şərqinin "Dan Ulduzu" oldu. Bu gün Şərqdə müstəmləkəçiliyin və müstəmləkə zülmü altında inləyən xalqların olmaması, eyni zamanda, Cümhuriyyətin təsiridir". Deputat əlavə edib ki, Cümhuriyyətin elan edilməsi göydəndüşmə olmadı: "Məlumdur ki, çarizmin Azərbaycanın şimalını işğal edib ilhaq edənə qədərki müəyyən dövrdə xalqımızın zəngin dövlətçilik ənənələri mövcud idi. Lakin 1828-ci ildə Azərbaycanın şimalı çar Rusiyası tərəfindən xanlıqlar formasında işğal edildikdən sonra tamamilə yeni bir şərait yarandı. Azərbaycanın ərazisi və xalqı iki yerə bölündü".

Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, millət vəkili Musa Quliyev isə qeyd edib ki, 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi dövlət başçısı tərəfindən atılan çox uğurlu və yerinə düşən bir addımdır: "XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması təkcə Azərbaycan xalqının deyil, müsəlman dünyasının tarixində çox mühüm bir hadisə idi. İlk demokratik respublikanın Azərbaycanda yaradılması bizim xalqın dünya xalqları içərisində nə qədər inkişaf etmiş və öz qiymətini bilən xalq olduğunun ifadəsidir. Təəssüflər olsun ki, Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, amma onun qoyduğu ənənələr əsrin sonunda Azərbaycan müstəqillik əldə etdikdən sonra Ümummilli Lider Heydər Əliyev tərəfindən tam həyata keçirildi".

M.Quliyev vurğulayıb ki, müasir Azərbaycanın özünü Xalq



# "SƏS" Media Qrupu UNEC-lə birgə konfrans keçirib





Cümhuriyyətinin varisi elan etməsi də tarixə, tarixi şəxsiyyətlərə hörmətin ifadəsidir: "Prezident İlham Əliyev bu ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməklə dünyaya ölkəmizin böyük müstəqillik tarixinin olması barədə mesaj verdi. Eyni zamanda, Azərbaycan xalqının dövlətçilik ənənəsinin olması və bu ənənənin yaşadılması, tarixi şəxsiyyətlərə hörmət edilməsi də bu ifadədə öz əksini tapır".

Milli Məclisin üzvü Elman Nəsirli deyib ki, Xalq Cümhuriyyəti qısa ömür sürərək 1920-ci ilin 28 aprelində süqut etsə də, tarixdə onun yeri, Azərbaycan xalqının istiqlal arzusu, 23 aylıq müstəqil dövlətçilik salnaməsi qalmışdı. Məhz buna görə də, həmin süqutdan 71 ildən sonra, 1991-ci ildə Azərbaycan SSR-nin oraq-çəkicli al bayrağını endirib müstəqil Azərbaycanın üçrəngli, ay-ulduzlu qumaşını yenidən ucaldanda biz Cümhuriyyətə, onun şanlı tarixinə və siyasi mirasına sahib çıxdıq". Natiq onu da qeyd etdi ki, istiqlal hər bir millətin ən böyük və taleyüklü amalıdır: "Amma gerçək istiqlal, sadəcə, bayraq qaldırılması, himn oxunması və bu faktın dünyaya bəyan edilməsi ilə məhdudlaşmır. Bu istiqlalı dövlətçilik təməli ilə möhkəmlətmək, həmin dövləti milli qeyrət və vətənpərvərlik yanğısı ilə qorumaq, nəhayət, dövlətçiliyi dönməz və əbədi etmək üçün səriştə, təcrübə, fəhm, uzaqgörən siyasət və iradə ardıcıllığı zəruridir. Yalnız bu keyfiyyətlərin daşıyıcısı olan liderə xalq şərtsiz arxalana, özünün taleyini ona həvalə edə bilər".

YAP Siyasi Şurasının üzvü, tarix elmləri doktoru, professor, İradə Hüseynova bildirib ki, dövlətimizin başçısı cənab İlham Əliyev 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdi: "Bu bəyanat da sübut edir ki, ölkəmizdə dövlət səviyyəsində dövlətçilik ənənələrinə, dövlətçilik tarixinə böyük önəm verilir, 1918-1920-ci illərin cümhuriyyəti tariximizin şanlı səhifələrindən biri hesab edilir. Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması onun milli-mənəvi dəyərlərimizə, tariximizə, keçmişimizə və bu günümüzə verdiyi yüksək dəyərin bariz nümunəsidir. Əsrin əvvəllərində, 1918-1920-ci illərdə qurulmuş və cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, əsrin sonlarında, 1991-ci ildə müstəqil dövlət kimi tarix səhnəsinə qədəm qoyan Azərbaycan Respublikası artıq öz tarixinin üçüncü onilliyinə qədəm qoyub. Ölkəmizdə milli dövlətçilik günbəgün inkişaf edir və möhkəmlənir. Biz belə bir dövlətin vətəndaşları olduğumuzdan qürur duyuruq".

BDU-nun mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, tarix elmləri doktoru Anar İsgəndərov çıxışında diqqətə çatdırıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra cümhuriyyət tarixi araşdırılmağa başlandı: "Bu istiqamətdə Ümummilli liderimiz Heydər Əliyevin qərarları xüsusi qeyd edilməlidir. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün AXC-nin tarixi ciddi şəkildə araşdırılaraq sanballı elmi əsərlər yazılıb. Eyni zamanda, cümhuriyyətinin yaradıcılarına böyük ehtiram bəslənilir, onların adı əbədiləşdirilib. Prezident İlham Əliyevin AXC-nın 100 illiyinin qeyd olunması haqqında imzaladığı sərəncam da tariximizə verilən yüksək qiymətdir. Bu, o deməkdir ki, Azərbaycan dövləti Xalq Cümhuriyyətinin tarixinə yüksək dəyər verir. Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə müstəsna yer tutur".

Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov öz çıxışında 1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu vurğulayıb, 1993-cü ildə Azərbaycan xalqının israrlı çağırışı və dəvəti ilə hakimiyyətə gələn Ulu Öndər və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin bu müstəqilliyi qoruyub saxlayaraq inkişaf etdirməsindən bəhs edib. Bildirib ki, 28 may 1918-ci il Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin ən şanlı səhifəsidir. Müstəqilliyimizin qazanılmasında əməyi olan istiqlal mücahidləri ən böyük hörmət və ehtirama layiqdirlər. İkinci dəfə qazandığımız müstəqilliyin qorunub saxlanılmasında, dövlətimizin möhkəmlənməsində və dünya miqyasında tanınmasında Ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri vardır. Bu gün iqtisadiyyatımızın dinamik inkişafı, regionda və dünyada artan nüfuzumuz, beynəlxalq və mötəbər tədbirlərin ölkəmizdə keçirilməsi və təşkili təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirməsinin məntiqi nəticəsidir.

Tarixçi alim Boran Əziz isə deyib ki, Cümhuriyyətin bu xalqa qazandırdığı ən böyük nemətlərdən biri Azərbaycan adıdır: "Millətimiz öz azərbaycanlı adını unutmuşdu, Cümhuriyyət bunu yenidən qaytardı. Azərbaycan Xalq Cümhuriyyəti əvvəlki quruluş olmadan quruldu, bütün nazirliklər, ştat strukturları sıfırdan formalaşdırıldı. Azərbaycan dövlətçilik tarixində Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin xüsusi yeri var. Qısa zamanda Azərbaycanda yaşayan bütün millətlərin təmsil olunduğu parlament yaradıldı. Burada rus, erməni, polyak və başqa millətlər də təmsil olunurdu. Parlament qısa müddət ərzində yaşamasına baxmayaraq, ordunun təşkili, vətəndaşlıq məsələləri, təhsil, insan hüquqlarının qorunması, aqrar məsələ kimi qanunlar qəbul etməyə nail oldu". Tədbirdə digər çıxış edənlər də mövzu ətrafında dəyərli fikirlərini bölüşüblər.

## "Bu, tariximizə, müstəqilliyimizin daha da möhkəmləndirilməsinə verilən böyük qiymətdir"



"Möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı Sərəncamı tarixi bir hadisədir. Bu, tariximizə, dövlətçiliyimizə, müstəqilliyimizin daha da möhkəmləndirilməsinə verilən böyük qiymətdir". Bu sözləri SİA-ya açıqlamasında "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib. Vüqar Rəhimzadənin sözlərinə görə, AXC-nin 100 illiyi respublikamızla yanaşı, dünyanın bir çox ölkələrində təntənəli şəkildə qeyd edilir: "Bu, Azərbaycanın dövlətçilik ənənələrinin nə qədər qədim tarixə malik olduğunun göstəricisidir. Təbii ki, müasir dövlətçilik prinsipləri, dövlətin inkişafı, bugünkü qüdrətli müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Bu gün Ulu Öndərin siyasətini uğurla həyata keçirən cənab Prezidentimiz İlham Əliyev Azərbaycanın həm iqtisadi imkanlarını, həm də siyasi nüfuzunu dünyada durmadan artırmaqdadır. Azərbaycan getdikcə təkcə regionda deyil, beynəlxalq aləmdə iqtisadi gücünə, siyasi nüfuzuna görə aparıcı ölkələrdən birinə çevrilməkdədir. Bütün bunlar möhtərəm Prezidentimizin həyata keçirdiyi uğurlu siyasət, reallaşdırdığı qlobal layihələr sayəsində mümkün olub.

## Arkanzas ştatının paytaxtında 28 May Azərbaycan Milli Günü elan olunub

Arkanzas ştatının paytaxtı Litl-Rok şəhərinin meri Mark Stodola Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə əlaqədar rəsmi bəyannamə imzalayıb. AZƏRTAC xəbər verir ki, bəyannamədə 1918-ci il 28 may tarixində müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi və dünyanın digər demokratik dövlətləri, o cümlədən ABŞ tərəfindən tanındığı qeyd olunur. Sənəddə bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində irqi, cinsi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər seçki hüququnu tanımaqla yanaşı, müsəlman dünyasında ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsini təmin edib. Eyni zamanda, sənəddə Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə öz müstəqilliyi uğrunda mübarizə aparmasına rəğmən onun Sovet İttifaqının tərkibinə daxil edildiyi və 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etməyə nail olduğu vurğulanır.

Qeyd edilir ki, Azərbaycan son 25 ildə suverenliyini və müstəqilliyini möhkəmləndirib və hazırda Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır. Bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyində dünyada yaşayan milyonlarla və ABŞ-da on minlərlə azərbaycanlı tərəfindən 28 May tarixinin milli bayram kimi qeyd edildiyi bildirilir, hər bir azərbaycanlının öz əcdadlarının Qafqaz, Mərkəzi Asiya və Orta Şərqdə demokratiyanın yayılması üçün verdiyi töhfələri xatırladıqları vurğulanır.

Sonda şəhərin meri Mark Stodola imzaladığı bəyannamədə 2018-ci il 28 may tarixini Litl-Rok şəhərində Azərbaycan Milli Günü elan edib.

# Azərbaycan Xalq Cümhuriyyəti gələcək müstəqilliyimizə zəmin yaratdı



***Şərqin ilk demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən 100 il ötür. Qürur gətirəcək bu hadisə Azərbaycanın tarixidir. Bu tarixdə Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirdi. 100 il əvvəl, Cümhuriyyətin elan edilməsi imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli azadlıq mübarizəsinin qanunauyğun nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrinin davamı idi. Birinci Dünya müharibəsinin sona çatması, Rusiyada oktyabr inqilabı və çarizminin süqutundan yaranmış gərgin vəziyyət, Rusiyanın keçmiş ərazilərin hamısına lazımi qədər nəzarət edə bilməməsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şərait yaratmışdı. Xüsusilə, qeyd olunmalıdır ki, belə bir şəraitdə müstəqil Cümhuriyyəti qura biləcək qabaqcıl ziyalılar təbəqəsinin yetişməsi də Xalq Cümhuriyyətinin yaranmasında müstəsna rol oynamışdı.***

Qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş ilk milli hökumət cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi əbədi yer tutub. Belə ki, 1918-ci il mayın 28-də Şərqdə qurulan ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti ərzində bir çox sahələrdə həyata keçirdiyi islahatlarla Azərbaycan tarixində mühüm bir mərhələnin əsasını qoydu. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq, şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi.

XX əsrin əvvəlində Azərbaycan dövlətinin xarici siyasət prinsipləri formalaşdı və bu prinsiplər dostluq və əməkdaşlığa söykəndi. Bunlar Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlaliyyət Bəyannaməsində də əksini tapdı. Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan Xalq Cümhuriyyəti, ilk dəfə olaraq, Azərbaycan adlı müstəqil dövlətin əsasını qoydu.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarix ölkəmizdə 28 May Respublika Günü kimi qeyd edilir.

## "...AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏNİM ÜÇÜN VƏ BİLİRƏM Kİ, HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI ÜÇÜN ƏN BAŞLICA VƏZİFƏDİR, ƏN BAŞLICA MƏQSƏDDİR"

XX əsrin 90-cı illərində, Azərbaycan da daxil olmaqla, bütün İttifaq respublikalarında başlanan və Sovet İttifaqının dağılması ilə nəticələnən milli azadlıq hərəkatı ilə Azərbaycan ikinci dəfə öz müstəqilliyinə qovuşdu. 71 il sonra 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycanın müstəqilliyi yenə təhlükə qarşısında idi. Yalnız Ümummilli Liderin xalqın təkidli istəyinə səs verərək, hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın Yeni Konstitusiyası qəbul olundu. Azad və demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı. Hüquq-mühafizə və məhkəmə sistemi yenidən quruldu.

Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoydu. Ümummilli Lider Heydər Əliyev müstəqilliyi ən böyük sərvət, ən böyük dəyər kimi qiymətləndirirdi: "Müstəqilliyi əldə etmək onu qoruyub-saxlamaqdan və möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq. ...Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqının maraqlarının qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir".

## AZƏRBAYCAN RESPUBLİKASINDA DEMOKRATİK, HÜQUQİ, DÜNYƏVİ DÖVLƏT, VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU PROSESİ UĞURLA DAVAM ETDİRİLİR

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrini qurulmasına nail oldu. Azərbaycan Prezidenti İlham Əliyev milli mənafelərlə bağlı problemlərin həllində həssas və fəal yanaşma nümayiş etdirdi. Azərbaycan dünyanın maraq dairəsinə əbədi daxil oldu və geosiyasi platformada ölkəmiz güc və nüfuz sahibinə çevrildi.

Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələrini icra edir, heç bir regional layihə Azərbaycanın iştirakı olmadan reallaşmır, ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Beləliklə, Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə olunması, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunur. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması, tarixi irsə bağlılıq kimi müqəddəs prinsip dayanır.

## BU GÜN ÖLKƏMİZ ÇAĞDAŞ DÜNYAMIZI NARAHAT EDƏN HUMANİTAR MƏSƏLƏLƏRİN MÜZAKİRƏ OLUNDUĞU, SİVİLİZASİYALARARASI DİALOQUN KEÇİRİLDİYİ MƏKANA ÇEVRİLİB

Xalqımız 28 May Respublika Gününü hər il təntənə ilə qeyd edir. Təsadüfi deyil ki, ölkə başçısı, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev 16 may 2017-ci il tarixdə imzaladığı Sərəncamla Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsini qərara almışdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi sevindirir və qürurlandırır.

Azərbaycan həm də Olimpiya Hərəkatının geniş vüsət aldığı idman ölkəsidir. Təqdirəlayiq haldır ki, respublikamızın davamlı inkişafı idmanı da əhatə edib və ötən illər ərzində ölkəmizin idman infrastrukturu tamamilə yenidən qurulub. Bunun nəticəsi olaraq, son illərdə ölkəmizdə idmanın əksər növləri üzrə dünya və Avropa çempionatları, "Bakı-2015" I Avropa Oyunları keçirilib. 2017-ci il may ayının 12-22 tarixlərində isə Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "Bakı-2017" IV İslam Həmrəyliyi Oynlarına yüksək səviyyədə ev sahibliyi edərək, tarix yazdı. "İslamiada"nın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. "Bakı-2017"də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu.

## "BU GÜN AZƏRBAYCANIN HƏR BİR YERİNDƏ DÖVLƏT BAYRAĞI DALĞALANIR"

Böyük çətinliklə əldə olunan azadlığı və müstəqilliyi qoruyub- saxlamaqda hər bir Azərbaycan vətəndaşı məsuliyyətlidir. Azərbaycan dövlətinin bayrağı daim dalğalanmalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bizim bayrağımız qürur mənbəyimizdir, canımızdır, ürəyimizdir: "Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır... Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan bayrağına! Yaşasın Azərbaycan!"

Azərbaycanın müstəqilliyi əbədidir və üçrəngli bayrağımız bir daha enməyəcək, daim uca zirvələrdə dalğalanacaqdır. Artıq 27 ildir ki, müstəqilliyimizin bəhrələrini görürük. 28 May Azərbaycan Respublikasının müstəqillik arzularının gerçəkləşdiyi gün olaraq hər zaman xatırlanır və dövlət bayramı kimi qeyd olunur.

***Zümrüd BAYRAMOVA***

# Ermənilər sındırılmış başlarını yenidən sındırır?

## Yaxud Paşinyanın bəyanatı erməni ictimaiyyətini dalana dirəyib



**Rusiya Ermənistanın aparıcı ticarət tərəfdaşıdır. Ermənistana qoyulan ümumi investisiyaların 35%-i Rusiyanın payına düşür..."**







***Son günlər Ermənistan ictimaiyyətində ən çox müzakirə edilən mövzulardan biri də yeni seçilmiş baş nazir Nikol Paşinyanın separatçı "DQR"ə səfəri zamanı səsləndirdiyi bəyanatıdır. N.Paşinyan həmin bəyanatında "Artsax"ın Qarabağ üzrə danışıqlara cəlb edilməsinin "mümkünlüyündən" danışmışdı. O, həmçinin, Ermənistanın münaqişə tərəfi olduğunu da etiraf etmişdi.***

Görünən budur ki, istər Paşinyanın Qarabağ danışıqları ətrafında səsləndirdiyi bəyanat və həmin bəyanat çərçivəsində Ermənistanı münaqişə tərəfi olaraq etiraf etməsi, istərsə də onun nazir təyinatları ətrafında tərəddüddə qalması başının sındırmış Ermənistan xalqının həmin başının yenidən sındırılacağından xəbər verir. Artıq yeni hökumətin böhranı yaranır və bu böhran erməni ictimaiyyətini daha çıxılmaz dalana doğru sürükləndirir.

### Xosrov Arutunyan: "Dövləti idarə etmək asan iş deyil"

Digər məqam budur ki, hazırda Ermənistanın siyasi dairələrində Paşinyanın bu və ya digər bəyanatları ətrafında narazılıqlarını bildirənlər də artmaqdadır. Misal üçün, Respublika Partiyasının parlament fraksiyasının deputatı Xosrov Arutunyan bildirib ki, o, yeni hökumətin qurulması ətrafında ən çox məsələ qaldıran azsaylı deputatlardandır. O, həmçinin, deyib ki, Paşinyanın bəlli bəyanatı yerində və vaxtında işlədilməyən ifadələrdir ki, sonradan müəyyən fəsadlara səbəb ola bilər.

Arutunyan bu barədə "1in.am" saytının rusdilli versiyasına açıqlama verərkən bildirib. Onun sözlərinə görə, hələ "məxməri inqilab" zamanı o deyirdi ki, baş nazirin kim olması əsas deyil, əsas budur ki, digər nazirlər kim olacaq. SİTAT: "Müdafiə naziri, maliyyə naziri, xarici işlər naziri, baş nazirin müavini kimlər olacaqlar ki, eyni zamanda, iqtisadi siyasətə təkan versin. Ermənistanın uğuru yalnız onda olar ki, həmin nazirliklərə layiq insanlar rəhbərlik etsinlər. Bu sahələrə rəhbərlik edəcək insanlar göstərməlidirlər ki, baş nazirin hansı siyasətinə necə riayət edəcəklər".



Erməni deputatı, eyni zamanda, gənclərin siyasi arenada vəzifələrə təyin olunmasının əleyhinədir. "Hazırda eşidirəm ki, gənclər bu müddətdə düşünməli və sonra hərəkət etməlidirlər. Çünki dövləti idarə etmək asan iş deyil"-Xosrov Arutunyan bildirib.

### Putinin Paşinyana diplomatik xəbərdarlığı: "...Unutmaq olmaz ki,

Yeri gəlmişkən, N.Paşinyanın Soçidə Rusiyanın prezidenti Vladimir Putinlə görüşü ətrafında süni uğur ajiotajı yaratmağa çalışan erməni mediası da, çox yəqin ki, həqiqəti görsə də, lal-dinməz dayanır. Məsələn, həmin görüşdə Rusiya prezidenti Ermənistanın baş nazirinə bəzi xatırlatmalar etmişdi. Putin isə bunları demişdi: "...Unutmaq olmaz ki, Rusiya Ermənistanın aparıcı ticarət tərəfdaşıdır. Ermənistana qoyulan ümumi investisiyaların 35%-i Rusiyanın payına düşür..."

Bu ifadələrin hər birinin arxasında barmaq silkələmək faktı dayanıb və ehtimal etmək mümkündür ki, Putin bu xatırlatmaları Paşinyana hədə-qorxu gəlmək üçün edib. Ümumiyyətlə, bu gün işğalçı dövlətin Paşinyan dönəminə keçməsi və bu dönəmdə "ümidlərlə" sabaha baxması faktoru, sadəcə, keçici eyforiya təsirini bağışlayır. Bu ölkənin yenidən təlatümlər içində boğulacağını isə çox yaxınlarda müşahidə edəcəyik. Çünki işğalçı ölkə siyasi kartlarını, o cümlədən, Qarabağ kartını da itirməyə doğru irəliləyir.

***Rövşən NURƏDDİNOĞLU***

---

# "Paşinyanın baş nazirliyi uzunömürlü olmayacaq"

## Azər Badamov: "Torpaqlarımızın işğaldan azad olunması hərbi güc vasitəsilə təmin edilməlidir "



**Müsahibimiz millət vəkili Azər Badamovdur**

**- Yenicə baş nazir seçilən Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı destruktiv mövqe ortaya qoyub. Bu, o deməkdirmi ki, münaqişənin həllində bundan sonra da irəliləyişə nail olmaq mümkün olmayacaq?**

- Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı mövqeyi sarkisyanların, paşinyanların mövqeyidir. Çünki Sarkisyan da, Paşinyan da dövlət çevrilişi ilə hakimiyyətə gəlibdir və ona görə də özlərini qəhrəman kimi təqdim edirlər. Amma məsələnin dərinliyinə baxanda, görmək olur ki, vəziyyət heç də elə deyil. Əgər bu gün Ermənistanda dövlət çevrilişi baş verirsə və bunun da kökündə ölkədəki iqtisadi tənəzzül dayanırsa, təbii ki, ermənilər tez və ya gec, bizimlə razılaşmağa məhkumdurlar. Ermənistanın iqtisadi tənəzzülünün kökündə birbaşa işğalçılıq siyasəti dayanır. Məhz ermənilərin işğalçılıq siyasətin davam etdirmələri Ermənistanı dünyadan təcrid etmişdir. Düşünürəm ki, Paşinyanın da hakimiyyətdə ömrü uzun olmayacaq. Ermənistana gözüaçıq, ölkəni sevən və xalqını düşünən yeni rəhbər gəlməlidir. O rəhbər ki, cəsarət tapıb torpaqlarımızdan əl çəksin və bizimlə normal qonşuluq münasibətlərinin bərpa edilməsinə çalışsın. Çünki Ermənistanın gələcəyi birbaşa Azərbaycanla münasibətlərdən asılıdır.

**- Paşinyan iddia edir ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlarda Dağlıq Qarabağ rejimi də tərəf kimi iştirak etməlidir. Bunu birbaşa danışıqları pozmağa yönələn addım kimi qiymətləndirmək olarmı?**

- Dağlıq Qarabağ dünya birlikləri tərəfindən tanınmış Azərbaycan torpağıdır. Necə ola bilər ki, Azərbaycanla danışığa işğal altındakı Azərbaycan ərazisindən kimsə danışıqlara gəlsin. Bu, qətiyyən mümkün deyil. Çünki Dağlıq Qarabağı işğal edən Ermənistan ordusudur və danışıqlar da Ermənistan rəhbərliyi ilə aparılmalıdır. Bu, dünya birlikləri tərəfindən də qəbul olunub və ATƏT-in Minsk Qrupu da qarşı tərəf kimi Ermənistan rəhbərliyini tanıyır. Qaldı ki Paşinyanın danışıqlarda "Dağlıq Qarabağ rejiminin tərəf kimi iştirak etməlidir" kimi ifadəni işlədilməsinə, deməliyəm ki, o, təcrübəsiz və siyasətdən xəbərsiz bir adamdır. Düşünürəm ki, Paşinyanın ifadəsi danışıqlar prosesini pozmamalıdır. Əgər Paşinyan danışıqlar aparmaqdan imtina edərsə, bunun Ermənistan üçün nəticələri çox ağır olacaqdır.

**- Bəzi siyasi şərhçilərin qeyd etdiklərinə görə, Paşinyanı hakimiyyətə Qərb gətirib. Paşinyan Dağlıq Qarabağla bağlı tutduğu destruktiv-pozucu mövqe Qərbin maraqlarına nə dərəcədə uyğundur?**

- Heç də düşünmürəm ki, Paşinyanı Qərb gətiribdir. Paşinyan Rusiyanın dəstəyi ilə hakimiyyətə gəlmişdir və bütün hərəkətlərini də Rusiyanın istəyinə uyğun tərzdə icra edir. Sarkisyan ikibaşlı siyasət yürütməyə başlamışdı. O, istəyirdi ki, həm Rusiyadan gizlin Qərblə əməkdaşlıq etsin, həm də Avroasiya İttifaqında təmsil olunsun. Sarkisyanın belə hərəkətləri Rusyanın xoşuna gəlmədi və Ermənistanda rəhbərliyi dəyişməklə idarəetmə strukturunu tam özününküləşdirdi. Düşnürəm ki, Paşinyanın Dağlıq Qarabağla bağlı tutduğu destruktiv-pozucu mövqe Qərbin maraqlarına uyğun gəlmir və Qərb çalışacaq ki, danışıqlar prosesi ATƏT çərçivəsində davam etdirilsin.

**- Ümumiyyətlə, Paşinyanın baş nazirliyi dövründə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hansısa irəliləyişlərə ümid bəsləmək olarmı?**

- Birincisi, düşünürəm ki, Paşinyanın baş nazirliyi uzunömürlü olmayacaq. İkincisi isə, Paşinyan Dağlıq Qarabağ problemini həll etmək iqtidarında deyil. Düşünürəm ki, Dağlıq Qarabağ probleminin həlli, Sarkisyan dövründə olduğu kimi, danışıqlar masası üzərində qalacaq. Dağlıq Qarabağda torpaqlarımızın işğaldan azad olunması və sülhün bərpası prosesi ancaq öz hərbi gücümüz vasitəsilə təmin edilməlidir. Bunun üçün də Ermənistanın havadarları ilə dil tapılmalı və hərəkətə keçməliyik.

***GÜLYANƏ***

*Ermənistanda "məxməri inqilab"dan ağızdolusu danışanlar nədənsə susublar. Onlar bir neçə gün əvvələ kimi ölkədə ciddi siyasi, sosial, iqtisadi və sair dəyişikliklərin olacağından, "erməni demokratiyası"ndan dəm vururdular. Deyirdilər ki, Ermənistan regionda islahatların aparılmasında yeni səhifə açacaq. Xaricdəki ermənilərin də bu prosesə marağı get-gedə sönür, çünki hər kəs görməyə başlayıb ki, İrəvan Moskvanın qoyduğu çərçivədən kənara çıxmaq iqtidarında deyil. Bu baxımdan, burada kimin baş nazir olmasının əhəmiyyəti yoxdur. Əsas məsələ Ermənistan rəhbərliyinin müstəqil siyasət yeridib-yeritməməyə qabil olması ilə bağlıdır. Məhz bu məqamla əlaqədar Nikol Paşinyanın Soçidə nələrdən danışacağı maraq doğururdu. O isə gözlənildiyi kimi, fərqli heç nə deyə bilmədi. Ekspertlər bütün bunların işığında Ermənistanın xarici siyasəti ilə bağlı müəyyən fikirlər ifadə edirlər. Həmin aspekt üzərində bir qədər geniş dayanmaq olar.*



# "Küçə naziri"nin siyasi fərqlilikləri: Paşinyan populizm girdabında

## Nazir yeni, problem köhnə: "erməni demokratiyası"nın əsl siması

Küçədən olan təzyiqlə "Yelk" partiyasının rəhbəri Nikol Paşinyan baş nazir seçiləndən sonra Ermənistanın xarici siyasətində nə kimi dəyişikliklərin ola biləcəyi ilə bağlı müzakirələr intensivləşdi. Ekspertlər daha çox iki məsələni - Rusiya ilə əlaqələrin taleyini və Dağlıq Qarabağ münaqişəsinin həlli imkanlarını diqqətə gətirirlər. Gözlənilirdi ki, N.Paşinyan fəaliyyətinin ilk günlərindən bu iki məsələ ilə bağlı konkret fikirlər ifadə edəcək. Ancaq o, real heç nə deyə və addım ata bilmədi. N.Paşinyan hələ də öz populist siyasi mövqeyində qalmaqdadır. Aydın olur ki, bu personanın müasir tələblərə cavab verə biləcək siyasi, ideoloji və diplomatik hazırlığı yoxdur. Görünür, onu "küçə naziri" kimi tanımaqda davam edəcəklər.

N.Paşinyan Soçidə Avrasiya İqtisadi İttifaqının (AİI) toplantısına qatılmazdan öncə jurnalistlərə verdiyi müsahibədə bir sıra fikirlər ifadə edib. O, daha çox Rusiya məsələsi üzərində dayanaraq, Moskva ilə bütün sahələrdə əlaqələrin inkişafına çalışacağını bəyan edib. Lakin bir sıra məqamlara yenidən baxmağın lazım gəldiyini də vurğulayıb. Çünki o, "rusiyapərəst" deyil, "ermənistanpərəst" siyasətçidir. Ekspertlər bu sözlərin feyk olduğunu deyirlər. Çünki Ermənistanın bütün prezidentləri belə danışıb. İndi onları N.Paşinyan "ruspərəst" kimi qiymətləndirirsə, özü kimdir? Onun "Rusiya ilə hərtərəfli strateji əməkdaşlıq" modelinin yeni elementi nədən ibarətdir?

Ermənistanda verdiyi müsahibədən bu cəhət qətiyyən görünmür. Əvəzində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli mexanizmi barədə dumanlı və qeyri-obyektiv təsəvvürə malik olduğu aydınlaşır. Bu haqda hətta Ermənistanın siyasətçiləri belə açıq danışırlar. Hələlik Paşinyan onları Dağlıq Qarabağ məsələsində üz-üzə qoya bilib. Proses N.Paşinyanın "Ermənistan münaqişədə bir tərəfdir" fikrindən başlayıb. Dərhal onu vəziyyəti mürəkkəbləşdirməkdə və Ermənistanı pis vəziyyətə salmaqda ittiham ediblər. Özü də ittiham müxalifətin iki ciddi fiquru olan Levon Ter-Petrosyan və Robert Koçaryan tərəfindən gəlir.

Əslində, keçmiş prezidentləri qıcıqlandıran - N.Paşinyanın Dağlıq Qarabağ cəbhəsində ermənilərin hərbi və diplomatik məğlubiyyətində Petrosyanla Koçaryanı günahlandırması burada başlıca rol oynayıb. L.T.-Petrosyan bəyan edib ki, məhz R.Koçaryan Dağlıq Qarabağ separatçılarının danışıqlardan uzaqlaşdırılmasına səbəb olub. R.Koçaryan isə sərt şəkildə buna cavab verib və günahkarın L.T.-Petrosyan olduğunu bildirib. Bu zaman hər iki keçmiş prezident bir-birini təhqir edən ifadələr işlədiblər.

Bunlar dolayısı ilə erməni diplomatiyasının Dağlıq Qarabağla bağlı aparılan danışıqlarda məğlub olduğunu göstərir. İndi N.Paşinyanın Dağlıq Qarabağdakı erməni separatçıları danışıqlara qatmaqla bağlı dediklərinin bir qəpiklik əhəmiyyəti yoxdur. Birincisi, N.Paşinyanın özü etiraf edir ki, Ermənistan münaqişə edən tərəfdir. "Dqr" adlanan qondarma qurumun bütün strukturları əslində Ermənistana aiddir. Ermənistan vətəndaşları Dağlıq Qarabağda işğal altında olan ərazilərdə hərbi xidmət keçirlər. Buna görə də Dağlıq Qarabağdakı separatçı-terrorçular danışıqlarda tərəf ola bilməzlər.

İkincisi, münaqişə ilə bağlı aparılan danışıqların formatı çoxdan müəyyənləşib. ATƏT-in Minsk qrupu bu işlə məşğuldur. Bu formatın dəyişməsini həmsədrlər qəbul etmirlər. Ermənistan isə onların hər üçünün əlaltısıdır. Bu səbəbdən danışıqların formatında hansısa dəyişikliyin olması gözlənilən deyil. Digər yandan, elə bir addıma cəhd edilsə, Azərbaycan, ümumiyyətlə, Minsk qrupunun həmsədrlərinin vasitəçilik missiyasından imtina edib problemi bütövlükdə başqa müstəviyə çıxara bilər. Onsuz da Bakı həmsədrlərin fəaliyyətsizliyi və birtərəfli mövqeyi barədə dəfələrlə fikir bildirib. Çətin ki, Azərbaycanın bu cür narazılığının olduğu bir şəraitdə həmsədrlər hansısa qıcıqlandırıcı addım atsınlar.

## Vassalın taleyi: bir populistin imkanları nəyə yetərlidir?

Deməli, real olaraq Nikol Paşinyanın münaqişə ilə ilgili dedikləri sırf populizmdir. Bir sıra ekspertlər məsələnin bu tərəfinə diqqət çəkərək, N.Paşinyanın faktiki olaraq Ermənistanı uçuruma doğru apardığı haqqında fikir ifadə edirlər.

Bunların fonunda N.Paşinyanın "Rusiya siyasəti"nin də qeyri-müəyyənliklərlə dolu olduğu qənaəti yaranır. Soçidəki görüşdə o, çıxışı zamanı yeni heç nə deyə bilməyib. Rusiyaya olan sədaqətini nümayiş etdirib. Vladimir Putinlə görüşü zamanı da N.Paşinyanın hansısa fərqli imicə sahib olduğu hiss edilməyib. Rusiya Prezidenti danışıqda anladıb ki, Ermənistan əvvəlki kimi Rusiyanın forpost-vassalıdır. Bu ölkənin kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracının 38 faiz artması Moskvanı daha çox maraqlandırır. İkinci dərəcəli məsələlərdən başqa, Kremli Ermənistanın sərbəst hərəkəti maraqlandırmır. O cümlədən təhlükəsizlik, enerji və müdafiə sahələri Moskvanın tam nəzarətində qalmaqda davam edəcəkdir.

Rusiya Prezidenti bütün bu incəlikləri nəzərdə tutaraq N.Paşinyanın ağıllı davranacağına işarə verib. Əslində, Ermənistanın indiki prezidenti A.Sarkisyan da V.Putin kimi düşünür. O, jurnalistlərə bildirib ki, Rusiyanın hərbi bazasının Türkiyə sərhədinə yaxın bir ərazidə (Gümrüdə) yerləşməsi çox məqamlardan xəbər verir və buna görə də Rusiya-Ermənistan əməkdaşlığı əbədi olaraq strateji xarakterli olmalıdır. N.Paşinyan Soçidə bu çərçivədən kənara çıxa biləcək bir kəlmə belə işlətməyib.

Bunlardan əlavə, ekspertlər Soçidə AİI-yə üzv dövlətlərin başçılarının N.Paşinyana heç bir maraq göstərmədiklərini də vurğulayırlar. Bundan psixoloji narahatlıq keçirən erməni nümayəndə heyəti yerində qurcalanmaqdan başqa bir iş görə bilməyib.

Belə çıxır ki, yeni baş nazir faktiki olaraq Rusiya ilə münasibətlərə heç bir yenilik gətirə bilməyəcək. Sadəcə olaraq o, buna qadir deyil. Moskva onun fəaliyyətinə ciddi nəzarət edir və istəmədiyi hansısa addımın atılmasına imkan verməz. Bu da reallıqda İrəvanın xarici siyasətdə əsaslı dəyişiklik edə bilməyəcəyini təsdiq edir. N.Paşinyanın "ermənipərəst" siyasətdən dəm vurması isə söz oyunundan və boş vəddən başqa bir şey deyildir. İrəvanın Qərblə münasibətlərə yeni məzmun gətirmək istəyi də absurddur. Avropa İttifaqı ilə əlaqələr Moskvanın müəyyən etdiyi çərçivədən kənara çıxa bilməz.

Bu bağlılıqda İran faktoru maraqlı görünür. N.Paşinyan bununla əlaqədar heç nə demir. Görünür, o, Vaşinqton və Brüsseldən ehtiyat edir. Onların qorxusundan İrəvanın Tehranla real və geniş əməkdaşlığa getməsi ehtimalı azdır. Burada N.Paşinyanın manevr etməyə çalışacağını gözləmək olar. Yəni üzdə Tehranla əməkdaşlıqdan danışacaq, ancaq konkret əmələ gəldikdə, qeyri-müəyyənliklər qalacaq. Ancaq bu mövqenin uğurlu olacağını demək çox çətindir. Çünki artıq ABŞ və İsrail İrana qarşı kifayət qədər sərt mövqe tutublar. Bu qarşıdurmada Ermənistan çox kiçikdir. Ona kimsənin ehtiyacı yoxdur.

Yuxarıda vurğulanan məqamlar Ermənistanın yeni iqtidarının fəaliyyətinin geosiyasi aspektləri barədə müəyyən nəticələr çıxarmağa imkan verir. Hər şeydən öncə, İrəvan Dağlıq Qarabağ məsələsində qeyri-konstruktiv mövqedə qalmaqda davam edəcək. Danışıqların konkret nəticə verə biləcəyini gözləmək çətindir.

Ermənistanın regional miqyasda geosiyasi mənzərəyə hansısa müsbət çalar gətirəcəyini düşünmək də sadəlövhlük olardı. Belə görünür ki, İrəvan regionda vəziyyətin mürəkkəbləşməsində maraqlıdır. O, əvvəlki kimi, terror mənbəyi olaraq qalır. Bütövlükdə xarici qüvvələrin təsiri altında olduğundan, Ermənistanın yaxın perspektivdə fərqli xarici siyasi kursa reverans etməsi ehtimalı çox aşağıdır. Buna rəğmən, bu kiçik və asılı ölkədə iqtidarların bir-birini sürətlə əvəz etməsi prosesi intensivləşə bilər. Ermənistan hələ uzun müddət qeyri-müəyyən, zəif və perspektivsiz ölkə olaraq qalacaq.

**Newtimes.az**

# Mənəviyyatdan və əxlaqdan uzaq olan insanlar

*Niyaməddin Orduxanlı: "Müxalif ünsürlər siyasi sabitliyi pozmaq üçün hər cür iyrəncliyə və hər cür murdarlığa əl atırlar"*



Ölkədə ictimai dəstəkdən məhrum olan dağıdıcı müxalif ünsürlər, bütün mümkün vasitə və üsullardan istifadə etməklə, xarici məkrli qüvvələr vasitəsilə yaramaz niyyətlərini həyata keçirməyə cəhd göstərirlər. Müxtəlif səbəblərdən ölkədən gedərək, xaricdə mühacir həyatı yaşayan azərbaycanlılardan istifadə edilməsi də, məkrli planların tərkib hissəsidir. Sosial şəbəkələrin imkanlarından istifadə edən xaricdə mühacir həyatı yaşayan bəzi azərbaycanlılar ölkəmiz əleyhinə qərəzli böhtanlar yayır və videolar paylaşırlar. Bu halda, sual yaranır: bu şəxslərin Azərbaycana qarşı üzüdönüklüyü nədən qaynaqlanır? BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı "Səs" qəzetinə açıqlamasında bildirdi ki, xaricdə olan həmin şəxslər bir mərkəzdən idarə olunmuş insanlardır: "Konkret olaraq, Azərbaycan dövlətinin milli maraqlarına, Azərbaycanın fəaliyyətinə istiqamətlənmiş insanlardır. Onlar, əsasən, Avropada dırnaqarası "mühacirət" həyatı yaşayan və müəyyən dairələrin əlində bir vasitəyə çevrilmiş şəxslərdir. Yəni onların səsləndirdikləri fikirlər özlərinin ağlının məhsulu deyil. Konkret olaraq, onlar təlimatlandırılmış və Azərbaycana qarşı məkrli siyasət aparırlar. Bildiyiniz kimi, artıq dünya müasirləşib və insanların böyük əksəriyyəti sosial şəbəkə və internet istifadəçisidir. Xaricdə olan həmin şəxslər də düşünürlər ki, bu cür qərəzli məlumatlar yaymaqla insanları Azərbaycan dövləti və siyasi hakimiyyəti əleyhinə istifadə edə bilərlər. Amma yanılırlar. Xalq-hakimiyyət birliyi möhkəm əsaslara söykənir. Bu birliyi heç bir yerli və xarici qüvvə poza bilməz. Əsasən, xaricdən Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq istəyən "söyüş qrupu" Azərbaycanın dağıdıcı müxalif ünsürləri olan Əli Kərimli və Arif Hacılıdan təlimat alırlar. Təbii ki, mən, birmənalı şəkildə, onların əməllərini pisləyirəm. Fakt budur ki, Azərbaycan cəmiyyəti də bu günə qədər onlara dəstək vermir və verməyəcək. Çünki cəmiyyətimiz onların kim olduqlarını çox yaxşı bilirlər. Xaricdə olan həmin şəxslər tərəfindən aparılan siyasət konkret insanlıqdan kənar, yəni heç bir mənəviyyata sığmayan və Azərbaycan cəmiyyəti tərəfindən mənfi qarşılanan bir əməldir. Əlbəttə ki, bunların da uğurlu bir nəticəsi olmayacaqdır və Azərbaycan xalqı mənəviyyatdan kənar hər hansı bir siyasi təşkilata dəstək verməyəcək. Sözün əsl mənasında, onlar fiaskoya uğrayacaq".

"Sizcə, onların məqsədləri nədir" sualına cavab olaraq, N.Orduxanlı bildirdi ki, onlar ölkəmizin uğurlarına kölgə salmaq və siyasi sabitliyi pozmaq üçün hər cür iyrəncliyə və hər cür murdarlığa əl atırlar: "Həmin xaricdə oturub, sosial şəbəkələrdə Azərbaycan dövləti haqqında reallığı özündə əks etdirməyən fikirlər səsləndirən və ağızlarına nə gəldi danışan şəxslərin həyatına baxsaq, onların insanlıqdan uzaq məxluqlar olduqlarını görə bilərik. "söyüş qrupu"nun üzvləri, həm də mənəviyyatdan və əxlaqdan uzaq olan insanlardır. Bir sözlə, normal, şüuru və tərbiyəsi olan insan da o cür yollara əl atarmı? Təbii ki, yox. Amma bunlar insan cildindən çıxmış ünsürlər olduqlarından, yaramaz mövqe sərgiləyirlər".

**GÜLYANƏ**

# Umud Rəhimoğlu: "Google" axtarış sistemi təxribata yol verib"



"Google" axtarış sistemi növbəti dəfə təxribata yol verib. Məşhur axtarış sistemi "Google maps"də Dağlıq Qarabağın və Azərbaycanın işğal olunmuş digər ərazilərinin adları erməni dilində göstərilir". SİA-nın verdiyi məlumata görə, bu barədə Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri Umud Rəhimoğlu deyib. "Təəssüf ki, bu, yuxarıda adı çəkilən internet resursunun təxribata yol verdiyi ilk hal deyil. Bu cür təxribat daha əvvəl də baş vermişdi. Beynəlxalq axtarış sisteminin Azərbaycan və onun ərazilərinə qarşı bu kimi təxribatları ciddi narahatlıq doğurur, xəritədə Azərbaycana qarşı bu cür təxribat xarakterli dəyişikliklərin edilməsi beynəlxalq konvensiyalara ziddir"-deyə, BAMF sədri bildirib. Umud Mirzəyevin sözlərinə görə, erməni lobbisi uzun müddətdir ki, tarixi yenidən yazmağa çalışır: "Xaricdə böyük təsirə malik olmaqla, onlar Dağlıq Qarabağ münaqişəsinin həllinin qarşısını almaq üçün hər vasitəyə əl atırlar. Xəritəni dəyişərək və faktları təhrif edərək, Ermənistan tərəfi vəziyyətin daha da gərginləşməsinə səbəb olur, Azərbaycan bütün qüvvəsi ilə münaqişənin sülh yolu ilə həll edilməsi üçün səy göstərir. Erməni lobbisi isə təsir vasitələrindən, indiki halda isə "Google" axtarış sistemindən istifadə edərək problemin sülh yolu ilə həllinə maneə törətməyə çalışır. Google rəhbərliyi müvafiq tədbirlər görməlidir. Bu, resursun faktları təhrif edərək bilərəkdən və ya təsadüfən ciddi pozuntulara yol verdiyi ilk hal deyil".

# Gələn ay Azərbaycanda 6 gün iş günü olmayacaq

Bu il iyun ayında Ramazan və Milli Qurtuluş Günü ilə əlaqədar 5 gün ölkədə qeyri-iş günü olacaq. SİA-nın məlumatına görə, Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli bildirib ki, iyunun 15-də ölkədə Milli Qurtuluş Günü, iyunun 15 və 16-sında isə Ramazan bayramı qeyd ediləcək. Lakin Milli Qurtuluş Günü və Ramazan bayramının üst-üstə düşməsi, eləcə də bayram günlərindən birinin, yəni iyunun 16-sının həftələrarası istirahət gününə (şənbə gününə) düşməsi ilə əlaqədar ölkədəki qeyri-iş günlərinin tarixlərində dəyişiklik edilib. Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci və 6-cı hissələrinə və Nazirlər Kabinetinin "2018-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2017-ci il 6 dekabr tarixli 540 nömrəli qərarına əsasən, 2018-ci ildə həftələrarası istirahət günlərinin iş günləri ilə Ramazan bayram günləri və Ramazan bayramının bir gününün Milli Qurtuluş Günü ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq, 18,19 iyun tarixləri istirahət günləri sayılacaq. Beləliklə, bazar günü də nəzərə alınarsa, iyunun 15,16, 17, 18 və 19-u ölkədə qeyri-iş günü, iyunun 20-si iş günü olacaq. Qeyd edək ki, iyunun 26-da Silahlı Qüvvələr Günü kimi qeyd edildiyindən həmin gün də iş günü hesab edilməyəcək.

# Masallıda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibəti ilə cüdo üzrə rayon birinciliyi keçirilib



Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibəti ilə YAP Masallı rayon təşkilatı və Masallı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə cüdo idman növü üzrə uşaqlar, yeniyetmələr və gənclər arasında rayon birinciliyi keçirilib.

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması haqqında Sərəncam imzaladığını və bugünkü idman tədbirinin, məhz həmin Sərəncam çərçivəsində həyata keçirildiyini idmançıların diqqətinə çatdırıb. S.Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqımız üçün tarixi hadisə hesab edirdi. Bu, eyni zamanda, islam dünyası üçün də önəmlidir. Çünki müsəlman Şərqində, ilk dəfə olaraq, Müstəqil Demokratik Respublika yaranmışdı. Ulu Öndər bu tarixi hadisənin böyük əhəmiyyətini vurğulayaraq demişdir: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi".

Rayon təşkilatı sədri Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, eləcə də, idman sahəsində aparılan uğurlu islahatlardan danışaraq, yarış iştirakçılarına geniş məlumat verib. Turnirin yekununda müxtəlif çəki dərəcələrində qaliblərə YAP Masallı rayon təşkilatı tərəfindən diplomlar, medallar və qiymətli hədiyyələr verilib.

**ZÜMRÜD**

# Sərhədi saxta viza ilə keçmək istəyən əcnəbilər saxlanılıb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlər uğurla davam etdirilir. Dövlət Sərhəd Xidmətindən qəzetimizə verilən məlumata görə, 2018-ci ilin 15 may tarixində DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində 3 xarici vətəndaşın saxta elektron vizalarla Azərbaycan Respublikası ərazisinə gəlmək cəhdinin qarşısı alınmışdır.

Belə ki, "Şarja-Bakı" reysinin rəsmiləşdirilməsi zamanı 3 Nepal vətəndaşı tərəfindən sərhəd nəzarətinə təqdim etdikləri elektron vizaların başqa dövlətlərin vətəndaşlarına aid olmaları müəyyən olunmuşdur. Sərhəd nəzarəti zamanı təqdim olunmuş sənədlərə laboratoriya şəraitində dərinləşdirilmiş baxış keçirilərkən Nepal vətəndaşı 1952-ci il təvəllüdlü Ali Bakhsi Ghodrollahın təqdim etdiyi elektron vizanın İİR vətəndaşı Şahi Ram Bahadurun adına, Nepal vətəndaşı 1993-cü il təvəllüdlü Khand Satrughmanın təqdim etdiyi elektron vizanın Çexiya vətəndaşı Mozek Ondrejin adına, Nepal vətəndaşı 1991-ci il təvəllüdlü Thapa Sunanın təqdim etdiyi elektron vizanın Böyük Britaniya vətəndaşı Shah Qasım Alinin adına verilməsi aşkar olunmuşdur.

Araşdırma zamanı həmin şəxslərin Azərbaycan Respublikası ərazisindən tranzit istifadə etməklə Avropaya qanunsuz miqrasiya etmək niyyətində olmalarını göstərən hallar aşkar olunmuşdur. Belə ki, Nepal vətəndaşlarının Azərbaycan Respublikasının elektron vizasını öz ölkələrində turizm agentliyindən 100 ABŞ dolları ödəməklə əldə etmələri, Bakıya turizm məqsədilə səfər etmələrini bildirdikləri halda geriyə aviabiletlərinin olmaması, şəhərdə qalmaq üçün yer sifariş etməmələri müəyyən edilmişdir.

Saxlanılmış əcnəbilər barəsində müvafiq əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

# Olimpiada qaliblərinin ali məktəblərə qəbulunda dəyişiklik olacaqmı?



Bu il ali məktəblərə müsabiqədənkənar qəbul prosesi hazırki qanunvericiliyə uyğun olaraq həyata keçiriləcək. SİA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.

Onun sözlərinə görə, dünya fənn olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qaliblərinin isə qalib olduqları fənlərə uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul edilməsinə dair qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün təkliflər hazırlanıb: "Təhsil Nazirliyinin bununla bağlı hazırladığı təkliflərə biz də müsbət rəyimizi vermişik. Statistikanı araşdırarkən müşahidə etdik ki, respublikada keçirilən fənn olimpiadalarının qalibləri qəbul imtahanlarında yüksək nəticə göstərirlər. Bunu nəzərə alaraq, qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərə müsbət yanaşırıq". Qeyd edək ki, Təhsil Nazirliyi beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qaliblərinin isə qalib olduqları fənlərə uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul edilməsinə dair qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün təkliflər hazırlayıb. Təkliflər artıq aidiyyəti qurumlarla razılaşdırma mərhələsindədir. Təkliflər Milli Məclisə də təqdim olunacaq.

# Radikal müxalifəti "qrant müharibəsi" bürüyüb!

***Radikal düşərgə bu dəfə daxili didişmələrlə "qaynayır" desək, çox güman ki, heç bir səhvə yol verməzik. Məsələ burasındadır ki, Azərbaycan əleyhinə apardıqları kampaniyanın müqabilində hər il jurnalist və siyasətçi adı ilə bəzi beynəlxalq qurumlardan böyük miqdarda qrant alanlar arasında qarşıdurma pik həddə çatıb. Radikal düşərgəni "qrant müharibəsi" bürüyüb.***




Natiq Adilov с Tural Qurbanli и еще 47.
13 мая в 2:50

Emin Millinin ABŞ-dakı brifinqdə cəbhəçilərlə bağlı etdiyi hərəkətin adı məşhur ifadə ilə desək, "danışa-danışa susmaq" idi.

Hörmətli bəyimizi ABŞ-a insan haqlarına dair brifinqə dəvət ediblər, sağ olsun, gedib. O verilən imkandan istifadə edib Azərbaycanda İlham Əliyevin çox pis, lənətlik rejim yaratdığın dedi. İnsanların susmağa məhkum edildiyin bəyanladı.

Bu rejimdən əziyyət görən bir neçə dəyərli qardaşımızın adın da çəkdi. Ancaq, nədənsə keçən ildən bəri 200-yə yaxın məhbus verən, ölkədə aktiv siyasi mübarizə aparan təşkilatı AXCP-ni bir ifadə ilə belə xatırlamadı. Təkrar edirəm, bir sözlə belə.

Ona bunu niyə belə etdiyini zaldakılardan sual verdilər. İndi videonu izləyin görün Emin Milli nə deyir, necə deyir. Düşmənimə də bu haləti arzulamaram.

Qeyd: video üzərində sarı şriflərlə yazılanlara mənə aiddir.

Videonu youtubedən də izləyə bilərsiniz https://www.youtube.com/watch?v=uwzn_SoPr5c

Sosial şəbəkələrdə bir-birlərinin təhqir etməkdən, söyməkdən çəkinməyən radikal müxalifət və 5-ci kalon açıq şəkildə qrant davası aparırlar. Yada salmaq lazımdır ki, cari ilin mayın 9-da Helsinki komissiyası tərəfindən ABŞ konqresində Azərbaycanla bağlı keçirilən dinləmələrdə çıxış edən Emin Milli Əli Kərimli və onun timsalında radikal müxalifət haqqında tənqidi fikirlər səsləndirib.

Emin Millinin radikal müxalifətin və onun satellit QHT-lərinin "haqqını" və ayrı-


Fuad Mammadov https://www.youtube.com/watch?v=Bx-0J_toqxg&feature=youtu.be

Emin Millini danışdıran qrantlardımı?
YOUTUBE.COM
Нравится · Ответить · 2 дн.

Khadija Ismayil Normalda trollara cavab vermirəm, amma burda yazım. Sevinc Osmanqızı yalan danışır! ANSi şəffaflıq nümunəsi kimi göstərməyi bir ayıb, onu da unudub, desin ki, Meydandan incikdir, çünki onu baş redaktor vəzifəsinə götürməyiblər. Niyə? Çünki Rəsul Quliyevin sponsorluğu ilə veriliş gətirmək istəyib ora. Meydan Tv reputasiyasını Sevinc Osmanqızının rüşvət praktikasından qoruyub.
Нравится · Ответить · 1 дн. 6


Cemil Hasanli
15 May, 10:27

Dostlar! Meydan.tv-nin əməkdaşı Orkhan Mammad bəy dünən bizə qarşı bir yazı paylaşmışdı və aramızda kifayət qədər yaş fərqi olmasına baxmayaraq yazısında təhqir elementləri var idi.(https://www.facebook.com/search/top/?q=orkhan%20mammad) Mən ona bundan çəkinməyi məsləhət etdim və xatırlatdım ki, ayıb belə şeyləri demək deyil, ayıb tərəfsiz, qərəzsiz, obyektivliyə iddialı bir mediya qurumunda Milli Şura və Xalq Cəbhəsi rəhbərliyinin proqramlara çağırılmaması haqqında aparıcılara göstərişlər verməkdir. Orkhan bəy bildirdi ki, "bu ittihamdır, sübut gərəkdirir, sübut olmasa böhtandır". Mən sübut qoydum ortaya. Lakin dünəndən bəri Orkhan bəy nə üzrxahlıq edib, nə də münasibət bildirib. Görünür sübutumuz yetərli olmayıb. Əlavə sübuta ehtiyac var. Buyurun onu də təqdim edək. Hələ tanınmış telejurnalist Sevinc Osmanqızı Meydan.tv-də çalışanda rəhbərlik tərəfindən ona bildirilib ki, Milli Şura və Xalq Cəbhəsinə bu media qurumunda moratorium, yəni qadağa qoyulub, əlavə edilib ki, bu bizim media siyasətidir və onu pozmaq olmaz. Əli Kərimli ilə apardığı bir video müsahibəyə görə jurnalistə irad bildirilib və ona moratoriumu pozmamaq barədə xəbərdarlıq edilib. Bəzi dostlar unudurlar ki, Meydan.tvi onların öz vəsaitləri hesabına deyil, demokratik qurumlardan aldıqları qrant vəsaitləri hesabına fəaliyyət göstərir. Və həmin təşkilatlar

lan qrantları təkbaşına mənimsəmək cəhdi digər "qrantyeyənlərin" ciddi qəzəbinə səbəb olub. Tərəflər arasında sosial şəbəkələrdə qrant uğrunda mübarizə də bundan sonra başlayıb. Onlar özləri-özlərini ifşa ediblər, başqa sözlə, bir-birlərinin paxırlarını açıblar. Bununla da aldıqları qrant müqabilində Avropadakı, qərbdəki ağalarının sifarişlərini yerinə yetirərək dövlətimiz, onun milli maraqları əleyhinə mübarizə apardıqlarını özləri bir daha isbat etmiş olublar.

ABŞ-da yaşayan jurnalist Sevinc Osmanqızı ilə Xədicə İsmayılın qarşılıqlı ittihamları diqqəti çəkir. Xədicə İsmayıl Sevinc Osmanqızını "Meydan TV"-nin direktoru olmaq üçün mübarizə apardığını və buna görə oradan qovulduğunu və Rəsul Quliyevin vəsaiti ilə proqram hazırlamaq istədiyini bildirib. Sevinc isə öz növbəsində Xədicəni xəstə adlandırıb.

Natiq Adilov isə Emin Millini saxtakarlıqda və qrant üçün fəaliyyət göstərməkdə ittiham edib, eyni zamanda müxalifəti fəaliyyətsizlikdə günahlandıran vəkil Aslan İsmayılov haqqında da tənqidi status yazıb. O, Aslan İsmayılovun səmimi olmadığını, sadəcə maşa rolu oynadığını qeyd edib. Natiq Adilov hesab edir ki, Aslan İsmayılov sadəcə olaraq sifarişlə işləyən müqəvvadır.

Cəmil Həsənli də "mövzu"dan kənarda qalmayıb və qrantlardan yazıb. Onun fikrincə, "Meydan TV" aldığı qrantları doğrultmayıb. Burdan isə məlum olan budur ki, "Meydan TV"-yə ayrılan iri həcmli qrantlar Cəmil Həsənlini ciddi narahat edir. O da aydın olur ki, bütün müxalifət düşərgəsində qrant uğrunda amansız mübarizə gedir. Kamil Vəli Nərimanoğlu isə Emin Millini Emin Zilli adlandırır, hətta onun haqqında eşşək ifadəsini işlədib.

Belə bir deyim var: görünən kəndə nə bələdçi. Radikal müxalifət, özünü jurnalist adlandırıb, amma jurnalistikanın prinsiplərindən qat-qat uzaq olan Xədicə, Sevinc kimilərin mübarizəsi, məqsədi ancaq qrant almağa yönəlib. Bu insanlar üçün "Daha çox kim təhqir edəcək, "daha çox kim Azərbaycana xəyanət edib, onun milli maraqlarına qarşı çıxacaq, o qədər də çox qrant alacaq" "prinsipi" ilə fəaliyyət göstərirlər. Amma çox uzağa gedə bilmirlər, yəni özləri-özlərini ifşa edirlər. Bunlar o insanlardırlar ki, Azərbaycan xalqına ağıl dərsi keçməyə çalışıb, onu meydana, mitinqlərə səsləyirlər. Maraqlı sual yaranır: qənimət üçün bir-bilərini təhqir edən, qıran müxalifət başçıları, fəalları və "5-ci kolon" ulduzları öz xalqını, dövlətini necə düşünə bilərlər?!

Qrant uğrunda bir-birinə qənim kəsilən bu insanların daha şirnikdirici təkliflər qarşısında gözlərini qırpmadan öz vətənlərini, dövlətlərini satacaqları şəksizdir. Necə ki, biz xeyli müddətdir anti-milli qüvvələrin, məhz bu hərəkətlərini müşahidə edirik.

Məsələyə münasibət bildirən siyasi şərhçi Azər Həsrətin sözlərinə görə, bütün bu baş verənlər onu göstərir ki, bu insanların məqsədi heç də Azərbaycanda insan haqları və demokratiyanın bərqərar olması deyil: "Bu adamların əksəriyyətini şəxsən tanıyıram, bu və ya digər şəkildə əvvəllər də təmasımız olub. İndi də bəzən beynəlxalq tədbirlərdə rastlaşırıq. Doğrudan da, bunların məqsədləri heç də iddia etdikləri kimi Azərbaycanda insan haqları və demokratiyanın bərqərar olması deyil. Onlar özlərindən müxtəlif problemlər uydurараq həmin problemləri gerçəklik kimi qələmə verirlər və tirajlayıb özlərini vacib və gərəkli insan kimi qələmə verməyə çalışırlar. Yəni həmin problemlərin kölgəsinə sığınıb özlərini vacib insanlar kimi təqdim etməyə çalışırlar".

Baş verənləri qrant bazarı uğrunda mübarizəyə bənzədən Azər Həsrət bildirib ki, indi bunların sıralarında o qədər basabas düşüb ki, çalışırlar biri-birilərini itələyib bazardan çıxartsınlar: "Çünki əslinə qalanda ora bir bazardır, qrant bazarı. Kim daha önəmlidir, kim daha öndədir, kim daha çox pul qazana bilər yarışına giriblər. Bu yarışda qalib gəlmək üçün də biri-birilərini gözdən salmağa cəhd göstərirlər. Yəni öz ağalarına, sığındıqları təşkilatlara, dövlətlərə digərləri haqqında yalan məlumatlar ötürür, ya da gözdənsalma kampaniyaları aparırlar. Bu da onların iç üzünü açır və bir daha göstərir ki, bu adamların məqsədi ancaq şəxsi mənafelərini təmin etməkdir. Bunu da Azərbaycanda demokratiya adı altında eləməyə cəhd göstərirlər".

# Kar, kor, kürkü yırtıq virtual radikallar

***Söz və mətbuat azadlığı ölkənin demokratik dəyərlərindən hesab olunur və hər bir sivil dövlət bu dəyərlərə sayğı ilə yanaşır. Azərbaycan sivil və demokratik bir dövlət olaraq hər zaman söz və ifadə azadlığına xüsusi diqqət yetirib, mətbuatın inkişafına qayğı göstərib. Təsadüfi deyil ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin sayı durmadan artır. Bu gün onların sayı 5 minə çatıb.***

Çox təəssüf ki, Azərbaycanda söz və ifadə azadlığına bu qədər böyük hörmətlə yanaşıldığı halda, dağıdıcı müxalif ünsürlər bunun əksini iddia edir və hətta ölkəmizdə belə bir azadlığın olmaması barədə fikir formalaşdırmağa da cəhd edirlər. Nəzərə alsaq ki, ölkədə internet resurslarından istifadədə heç bir məhdudiyyətlər yoxdur, hər bir vətəndaş, hər kəs istədiyi şəkildə bu resurslardan istifadə edə bilir, bu iddiaların tamamilə əsassız olduğu fakt olaraq ortaya çıxır. Əgər hal-hazırda arzu edən hər bir kəs virtual müstəvidən və sosial şəbəkələrdən istifadə edə bilirsə, istənilən informasiyanı paylaşa bilirsə, yəni məhdudiyyətsiz informasiya mübadiləsi həyata keçirilirsə, hansı söz və ifadə azadlığının olmamasından söhbət gedə bilər?

Acınacaqlısı odur ki, söz və ifadə azadlığından məhrum edildiklərini iddia edənlər utanmadan sosial şəbəkələrdə qərəzli məlumatlar paylaşır, canlı yayımdan istifadə edir, istənilən mövzuda öz fikirlərini ictimailəşdirir və hələ bir bundan sonra ölkədə söz azadlığının təmin edilmədiyini dilə gətirirlər. İstənilən adam virtual müstəvidə özünə məxsus səhifə yaradaraq, canlı bağlantılara girir, istədiyi adamla video-müsahibəsini, görüntülərini canlı yayım vasitəsilə ictimai müzakirəyə çıxarırsa, bəs hansı üzlə söz azadlığının məhdudlaşdırılmasından danışırlar? Bəzən, ümumiyyətlə aidiyyəti olmayan adamların, hətta uyğunsuz müzakirələri belə qadağasız və məhdudiyyətsiz şəkildə yayımlanır, necə deyərlər, hər kəsin də öz arşınına görə baxış bucağı paylaşılır. Sevinc Osmanqızının internet resurlarından istifadə edərək, virtual müstəvidə öz prizmasını ortaya qoyması, arqumentsiz və əsassız iddialarla mühakimə etmək cəhdi, haqlı olaraq ictimai narazılığa səbəb olub. Mütəmadi olaraq dacıdıcı müxalifət düşərgəsinin nümayəndələrini dəvət edib, aidiyyatı oldu-olmadı müxtəlif sahələr barədə rəyini soruşması və qeyri-peşəkarların da ağlına nə gəldi danışmaları, təbii ki, ictimai narazılığa səbəb olmaya bilməz.

Çox maraqlıdır, Sevinc də bu müxalifət başbilənləri kimi harda pəltək-piltək, psixi problemli adamlar var, onlarla siyasi səhnəni bölüşməyə can atır. Yəni harda kar, kor, kürkü yırtıq var, bir-birini tapar, onları da Sevinc tapıb qoyur ekran qarşısına. Bu vəziyyətdə, kar deyir eşidirəm, kor deyir görürəm, çolaq da deyir durun qaçaq.

Tiyəsiz bıçaqla soyub-doğradıqlarını altıyox qazanda elə bişirirlər ki, televiziya efirlərində və filmlərdə gördüyümüz dəlixanalar yada düşür. Görəsən, bunlar fərqindədirlərmi ki, o dəlixanalarda bu havalı insanların yeri görünür?



S.Osmanqızı nə vaxta qədər bu insanlarla əlaqə yaradıb, hap-goplarına qulaq asacaq? Görmürmü bunların yalanlarını? Görmürmü bunların şişirtmələrini? Görmürmü yalançı vədlərini? Məgər nəticəsiz, səmərəsiz və fəaliyyətləri də gözü önündə deyil? G.Hacıbəyli S.Osmanqızına vido-müsahibələrinin birində deyir ki, "Məhsul" stadionunda keçirilən son mitinqdə guya 15-20 min adam toplaşıb. Gültəkin nə vaxt sayıb 15 min adamı? Sevinc, əgər Gültəkinin yalanını görə bilmirsənsə, deyim gör və bil ki, uzunluğu 90 m, eni 45 metr olan stadion, daha dəqiq desək, 4000 kvadratmetr olan meydan uzaqbaşı 8 min adam tuta bilər, özü də basa-bas olmaq şərtilə. Bəs adamdan soruşarlar ki, sən bu rəqəmi goplayanda, özün anlamırdınsa, özün bilərsən, amma bu millətin içində hamının Sevinc ağılda olacağını düşündüyün üçün heçmi utanmırsan? Sevinc, heç olmasa, bu fakt sənə nə isə deməlidir və əgər bu stadiona və həqiqətə sığmayan rəqəm də səni ayıltmasa, deməli, sən özün də xəstəliyə meyillisən, eynən bu radikal müxalifət və bu hap-gop edənlər kimi.

***İnam HACIYEV***

# "Nar" Ümumrespublika İnformatika Olimpiadasının qaliblərini mükafatlandırdı

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirliyi, Heydər Əliyev Fondu, Təhsil nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı və "Nar" operatorunun sponsorluğu ilə keçirilən "Ali məktəb tələbələri arasında informatika üzrə Ümumrespublika Olimpiadası" qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.



12-ci Olimpiadanın yekunlarına əsasən, Bakı Mühəndislik Universitetinin "BEU Programmers" komandası 1-ci, ADA Universitetinin "ADA U1" komandası 2-ci, Bakı Dövlət Universitetinin "BSU1" komandası 3-cü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Sharper" komandası isə 4-cü yeri tutub. Qaliblər Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Fəxri Fərman və Diplomlarla, eləcə də "Nar" operatorunun təqdim etdiyi qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

İnformatika olimpiadasının məqsədi ali məktəb tələbələrinin informatika, proqramlaşdırma sahəsindəki biliklərinin və bu sahəyə olan marağının artırılması, eyni zamanda qaliblər sırasından seçilən tələbələrin beynəlxalq olimpiadalara cəlb edilməsidir. Olimpiadaya dəstək göstərməkdə "Nar", özünün korporativ sosial məsuliyyət strategiyasına (KSM) uyğun olaraq, İKT sahəsində yerli mütəxəssislərin yetişməsinə və İKT-nin gənclər arasında təbliğinə töhfə verir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" tərəfindən keçirilmiş şəbəkə sınaqlarına əsasən "Nar" mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

# Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda mübarizəsi

***Prezident İlham Əliyev 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edib. Prezident bunu Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib. Dövlət başçısı il ərzində bununla əlaqədar həm ölkəmizdə, həm də xaricdə bir çox tədbirlərin keçiriləcəyini deyib.***

Qeyd etmək lazımdır ki, respublikanın adı ilə bağlı mübahisələrə Ulu Öndər Heydər Əliyev son qoymuşdur. Tarixçi-alim Altay Göyüşovun göstərdiyi kimi, əslində, o dövrün sənədlərində bu ad "Azərbaycan Cümhuriyyəti" kimi qeyd edilib. Ancaq respublikanın demokratik olması "İstiqlal" Bəyannaməsində xüsusi olaraq qeyd edilir. Bəyannamənin 2-ci maddəsində göstərilir: "Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor". Sonrakı maddələrdə də "Azərbaycan Xalq Cümhuriyyəti" deyə təkrar olunub. Rus dilinə isə "Azerbaydjanskaya Demokratiçeskaya Respublika" kimi tərcümə edildi və qısaldılmış şəkildə ADR yazıldı. O dövrdə bəzi sənədlər və yazışmalar rus dilində aparılırdı. Onda AXC-ni ADR kimi qeyd edirdilər. "Cumhuriyyət" sözünü "respublika", "xalq" sözünü isə "demokratiya" kimi tərcümə etmişdilər. İstiqlal Bəyannaməsinin fransızca mətnində AXC-Demokratik Respublika kimi tərcümə olunur. Azərbaycanın nümayəndə heyətinin rəhbəri Əlimərdan Topçubaşovun Paris Sülh Konfransına ünvanladığı məktublarda Azərbaycanın adı fransızca Azərbaycan Respublikası olaraq yazılıb.

Qocaman tədqiqatçı Şirməmməd Hüseynov qeyd edir ki, dövlətin adı Azərbaycan Xalq Cümhuriyyətidir və sənədlərdə bu cür göstərilib. Vaxtilə rus dilinə düzgün tərcümə edilməyib. Heydər Əliyev Milli Arxiv İdarəsinin o vaxtkı rəhbəri Ataxan Paşayevi yanına çağırıb ki, orijinalı mənə gətirin. İstiqlal Bəyannaməsini Ona aparıblar, oxudub ki, orada dövlət "Azərbaycan Xalq Cümhuriyyəti" adlandırılır. Ondan sonra dedi ki, bəs niyə Demokratik Respublika adlandırırsınız? Bundan sonra Onun AXC ilə bağlı sərəncamlarında Azərbaycan Xalq Cümhuriyyəti yazıldı. Hesab edirəm ki, dövlətə nə ad veriblərsə, o adla da adlandırılmalıdır.

İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 99908,86 km təşkil edirdi. 13983,1km ərazi isə mübahisəli ərazi kimi qəbul olunaraq, gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu.

Ermənistana güzəşt edilən İrəvan quberniyasının ərazisi 8913,17 km (ərazisi - Yeni-Bəyazid qəzası, İrəvan qəzasının 3/5-i, Eçmiədzin qəzasının və Aleksandropol qəzası daxil idi; əhalisi 321 min nəfər olmuşdur ki, bunun da 230 mini erməni, 80 min müsəlman, 5 mini yezidi kürd və 6 mini digər millətlər) təşkil edirdi. Edilən güzəştdən sonra ermənilər Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış etdilər. Lakin 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci il aprelin 28-də, Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular.

4 iyun 1918 - Batumda aparılan danışıqların yekunu olaraq Xalq Cümhuriyyəti ilə Osmanlı arasında "Sülh və dostluq haqqında" müqavilə imzalanıb. Müqavilıni Azərbaycan tərəfdən Milli Şuranın sədri M.Rəsulzadə və xarici işlər naziri M.Hacınski, Osmanlı tərəfdən ədliyyə naziri Xəlil bəy və Qafqaz cəbhəsinin komandanı Vahib paşa imzalamışdı. Bu müqavilə ilə Xalq Cümhuriyyəti birinci olaraq Osmanlı tərəfindən tanınıb. Müqavilədə Osmanlı dövləti Xalq Cümhuriyyətinə hərbi yardım göstərmək barədə öhdəlik götürüb.

24 iyun 1918 - Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı qəbul edilib. Hökumətin qərarı ilə qırmızı parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmiş bayraq Cümhuriyyətin müvəqqəti rəmzi elan edilib. Azərbaycanın indiki üçrəngli (mavi, qırmızı, yaşıl) bayrağı isə dövlət rəmzi olaraq 1918-ci ilin noyabrında qəbul edildi.

26 iyun 1918 - Xalq Cümhuriyyətinin hökuməti Azərbaycanın ilk Milli Ordu hissəsinin - əlahiddə diviziyanın yaradılması barədə qərar qəbul edib. Həmin dövrdə Cümhuriyyət hökumətinin tabeliyində olan hərbi qüvvələr türk (Osmanlı) ordu hissələri ilə birlikdə ("Qafqaz İslam Ordusu") Nuru paşanın komandanlığı altında "Bakı Kommunası"nın qoşunları ilə qızğın döyüşlər aparırdı. Cümhuriyyətin Hərbi Nazirliyinin təşkili barədə qərar bir qədər sonra, avqustun 1-də verildi. Nazirlik özü isə 1918-ci ilin dekabrında fəaliyyətə başladı. Keçmiş çar Rusiyası ordusunun generallarından Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildilər.

27 iyun 1918 - Azərbaycan və türk (Osmanlı) hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu Göyçay yaxınlığındakı döyüşdə "Bakı Soveti"nin qoşunlarını məğlub edib. Bu zəfərdən sonra Qafqaz İslam Ordusunun hissələri daşnak-bolşevik qoşunlarının hücumlarını dayandıraraq, əks-hücuma keçməyə başlayıblar.

27 iyun 1918 - Xalq Cümhuriyyətinin hökuməti "Dövlət dili haqqında" qərar qəbul edib. Azərbaycan (türk) dili Cümhuriyyət ərazisində dövlət dili elan olunub.

2 iyul 1918 - Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyski ölkədə ilk polis bölümünün yaradılması barədə əmr verib. Bununla Azərbaycan polis orqanlarının əsası qoyulub.

10 iyul 1918 - Azərbaycan və türk (Osmanlı) hərbi qüvvələri (Qafqaz İslam Ordusu) Kürdəmir yaxınlığındakı döyüşdə daşnak-bolşevik "Bakı Soveti"nin qoşunlarını məğlub ediblər. Kürdəmir qəsəbəsi işğalçılardan azad olunub. Bu qələbədən sonra Qafqaz İslam Ordusunun daşnak-bolşevik qüvvələri üzərinə geniş əks-hücumu başlanıb. İyulun 14-də azərbaycanlı-türk qoşun hissələri strateji əhəmiyyətli Kərar dəmir yolu stansiyasını ələ keçiriblər.

15 iyul 1918 - Xalq Cümhuriyyəti hökuməti azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin araşdırılması üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıb. Komissiya 1918-ci ilin mart qırğınları ilə yanaşı, XX əsrin əvvəlindən ermənilərin azərbaycanlılara qarşı törətdikləri digər qətliamlar haqqında çoxsaylı materiallar toplamış, Cümhuriyyət hökumətinin qərarı ilə 31 mart "Soyqırımı Günü" elan edilmişdi. Azərbaycanın sovetləşməsindən sonra bu tarix gizlədildi.

20 iyul 1918 - Xalq Cümhuriyyəti və türk (Osmanlı) qüvvələrinin Nuru paşanın komandanlığı altındakı birgə Qafqaz İslam Ordusu daşnak-bolşevik "Bakı Kommunası" qoşunlarına daha bir zərbə endirərək, Şamaxı şəhərini azad ediblər. Bu arada türk qoşunları cənubdan (indiki Neftçala rayonu ərazisi) Bakı istiqamətində irəliləməyə başlamışdı.

1918-ci il sentyabrın 15-də baş verən ağır döyüşlərdən sonra, Azərbaycan Demokratik Respublikasının Milli Ordusunun və Nuru Paşanın başçılıq etdiyi Osmanlı Türk İslam Ordusunun hissələri Bakını bolşevik, erməni-daşnak və ingilis hərbi dəstələrindən azad etmişdir və müstəqil Azərbaycan hökuməti Bakıya köçmüşdür.

28 may 1919 - Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Paris Sülh Konfransında ABŞ prezidenti Vudro Vilsonla görüşərək Xalq Cümhuriyyətinin tanınmasını xahiş edib. Antitürk və ermənipərəst mövqeyi ilə seçilən Vilson bu xahişi rədd edib.

16 iyun 1919 - Azərbaycanla Gürcüstan arasında Hərbi Müttəfiqlik Paktı imzalanıb. Razılaşmaya əsasən, Azərbaycan gürcü tərəfə neft verməklə əvəzində silah və texnika almağa başladı. Hərbi Pakta görə, tərəflər Rusiyanın hərbi təcavüzünə qarşı bir-birinə dəstək verməli idilər. Lakin 1920-ci ilin aprelində bolşevik Rusiyasının Azərbaycana hücumu zamanı Gürcüstan bu öhdəliyə deyil, özünün müstəqilliyinin tanınması barədə ruslarla separat danışıqlara üstünlük verdi.

İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 99908,86 km təşkil edirdi. 13983,1km ərazi isə mübahisəli ərazi kimi qəbul olunaraq, gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu. Ermənistana güzəşt edilən İrəvan quberniyasının ərazisi 8913,17 km (ərazisi - Yeni-Bəyazid qəzası, İrəvan qəzasının 3/5-i, Eçmiədzin qəzasının və Aleksandropol qəzası daxil idi; əhalisi 321 min nəfər olmuşdur ki, bunun da 230 mini erməni, 80 min müsəlman, 5 mini yezidi kürd və 6 mini digər millətlər) təşkil edirdi. Edilən güzəştdən sonra ermənilər Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış etdilər.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Allergiyası olanlar, evdə süni xalılardan istifadə etməyin!



Evimizdə hər zaman soyuqdan qorunmaq, sağlam yaşamaq və komfortu təmin etmək üçün taxta və ya parket döşəmələrdən istifadə edirik. Parket döşəmələr bahalı olmasına baxmayaraq uzunmüddətli və ekoloji təmizdir.

Bu barədə AZƏRTAC-a kimya elmlər namizədi Abuəli Hüseynli məlumat verib. Mütəxəssis bildirib ki, laminar döşəmələrini rütubətli yerlərdə istifadə etmək olmaz. Belə döşəmələrin ömrü 5-15 ildir, lakin təmizlik baxımından gigiyenikdir. Zərərli tozları özündə saxlamır. Linoliumlar isə bakterioloji olurlar. Onlardan əsasən, tibbi müəssisələrdə, evlərdə geniş istifadə edilir. Linoliumları da rütubətli yerlərdə istifadə etmək tövsiyə edilmir. Linoliumların ömrü növündən asılı olaraq 10-15 il arasında dəyişir.

"Döşəməyə xalı sərmək estetik zövqü oxşamaqla yanaşı, həm də sağlamlığa xidmət edir. Xalılar əsasən təbii və ekoloji təmiz materiallardan hazırlandığı üçün istiliyi xaricə vermir, evə rahatlıq bəxş edir. Belə evlərdə rütubət səviyyəsi 40 faizdən az, 70 faizdən çox olmamalıdır. Xalılarda olan canlı bakteriyaları tozsoranla təmizləmək olur. Nəticə etibarı ilə xalı təmizlənir, otağın havası isə kiçik toz hissəcikləri ilə çirklənir. Belə hissəciklər allergiya və astma xəstəliyinin əmələ gəlməsinə səbəb olur. Müasir elektrikli tozsoranlarda bu proses baş vermir. Çünki elektrik tozsoranlarının çıxışında filtrlər yerləşdirilir. Bu filtrlər həmin toz hissəciklərini asanlıqla özündə saxlaya bilir.

Sintetik materiallardan hazırlanan kovrolit və xalılar ekoloji təmiz olur. Yalnız sintetik xalılar ətrafda olan toz hissəciklərini özlərinə maqnit kimi çəkə bilir. Allergiya xəstəliyi olan insanlar süni xalılardan istifadə etməməlidirlər. Kovrolitlər süni xalının xassələrini özündə saxlayır. Onlar sıx polipropilen və ya kokos saplarından hazırlanır ki, bunlar da daha çox toz mənbəyi hesab olunur",- deyə A.Hüseynli qeyd edib.

# Hipertoniya - "sakit qatil"



Mayın 17-də Dünya Hipertoniya ilə Mübarizə Liqası və Beynəlxalq Hipertoniya Cəmiyyətinin təşəbbüsü ilə Dünya Arterial Hipertoniya Günü qeyd edilir. Hipertoniyanı "sakit qatil" adlandırırlar.

AZƏRTAC xəbər verir ki, hipertoniyada açıq simptom yoxdur, yüksək arterial təzyiqdən başqa, o həyati əhəmiyyətli orqanlara - beyin, ürək, qan damarları, gözlərin torlu qişası və böyrəklərə zərər vurur.

Arterial hipertenziya - arterial təzyiqin 140/90 mm civə sütunundan yuxarı qalxması halıdır. Arterial hipertenziya birinci və ikinci dərəcəli olur. Birinci dərəcəli arterial hipertenziya zamanı hipertoniya ayrıca bir xəstəlik sayılır və onun əsas və aparıcı əlaməti arterial təzyiqin qalxmasıdır. İkinci halda isə arterial hipertenziya simptomatik hipertoniya adlanır və bu zaman arterial hipertenziya başqa xəstəliklər nəticəsində əmələ gəlir.


## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Novruzlu Aytac Elçin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika ixtisası üzrə I kurs tələbəsi Ramazanova Ayselin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin III kurs tələbəsi Ağayeva Qəmər Elşən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim ixtisası üzrə IV kurs tələbəsi Karaman Azadın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.




# Bakıda Sosial Futbol Məktəbinin açılış mərasimi keçirilib



Bakıda Realmadrid Fondunun sosial futbol məktəbinin açılış mərasimi keçirilib. SİA-nın məlumatına görə, mərasim Olimpiya Növləri üzrə Milli Komandalar üçün Təlim-Məşq Mərkəzində baş tutub. Tədbirdə Realmadrdid Fondunun nümayəndələri - "Real Madrid" Futbol klubunun elçisi Rikardo Qalleqo və Realmadrid Fondunun Avropa regionu üzrə baş meneceri xanım Elena Fernandez iştirak edib. Mərasimdə iştirak edən gənclər və idman naziri Azad Rəhimov ölkəmizdə futbolun inkişafının daim dəstəkləndiyini bildirib. O, qeyd edib ki, belə bir məktəbin açılışı Azərbaycan uşaq futbolunun inkişafı üçün çox önəmlidir: "Real Madrid Futbol klubu dünyada öz uğurları və təcrübəsi ilə seçilir. Belə bir klubun məktəbində futbol dərsləri almaq hər bir uşağın inkişafı və gələcək karyerası üçün uğurlu addımdır".

Futbol klubunun elçisi Rikardo açılış mərasimindəki çıxışında 5 illik əməkdaşlıqdan məmnunluq duyduğunu deyib: "Gənclər və İdman Nazirliyi, "İnkişaf naminə idman" İB və Realmadrid Fondu bir komandadır. Bu sosial komanda Azərbaycanda uşaqların gələcəyini formalaşdırmaq üçün çalışır. Biz öz çempionluğumuzu, birlikdə dünyanı daha yaxşı yerə çevirəcək, hörmət, motivasiya, çalışqanlıq, bərabərlik, sağlamlıq, əməkdaşlıq, məsuliyyət və həmrəyliyə əsaslanan çempionluğumuzu qazanmalıyıq". Realmadrid Fondunun sosial futbol məktəbi layihəsi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə əməkdaşlıq nəticəsində reallaşdırılır. Əsas icraedici tərəfdaş isə İnkişaf Naminə İdman İctimai Birliyidir. Realmadrid Fondunun sosial futbol məktəbinin əsas məqsədi ölkədə futbolun inkişafı və kütləviliyinə dəstək verməkdir.

Sosial Futbol Məktəbində 4 yaş qrupu üzrə - (7/8, 9/10, 11/12 və 13/14) komandalarda təxminən 80 uşaq məşqlərə cəlb olunur. Məşqlər həftədə iki dəfə - 4 və 6-cı günlər, 267 saylı məktəbin və "Pioner" Futbol Məktəbinin meydançalarında keçirilir. Məşqlər ödənişsizdir.



# "Atletiko Madrid" üçüncü dəfə UEFA Avropa Liqasının qalibi olub

UEFA Avropa Liqasının qalibi İspaniyanın "Atletiko Madrid" klubu olub. AZƏRTAC xəbər verir ki, Avropa Liqasının iki finalçısı İspaniyanın "Atletiko Madrid" və Fransanın "Marsel" klubu Lion şəhərində üz-üzə qəlib. İlk hissədə üstünlük daha çox fransızlarda olub. İlk real qol vəziyyətini də "Marsel" yaradıb. Oyunun 2-ci dəqiqəsində qapıçı ilə təkbətək qalan Okampos fürsəti əldən verib. Rudi Qarsiyanın yetirmələri rəqib komandanın qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaradıb. Amma hücumlara baxmayaraq, hesabı "Atletiko Madrid" açıb. Müdafiəçilərin kobud səhvini Antuan Qrizman bağışlamayıb - 1:0. Matçın 32-ci dəqiqəsində "Marsel" klubunun kapitanı Dimitri Payetin zədələnərək meydanı tərk edib.

Qoldan sonra hər iki komandanın səylərinə baxmayaraq, hesab dəyişməyib. Birinci hissə bu hesabla başa çatıb. Fasilədən sonra 49-cu dəqiqədə A.Qrizman dublunu rəsmiləşdirib - 2:0. Matçın 89-cu dəqiqəsində cəzalı olduğundan tribunadan oyunu izləyən Dieqo Simyonenin yetirmələri son nöqtəni qoyub. Qabi fərqlənib - 3:0. Beləliklə, stadiondan 68 min nəfərin izlədiyi final oyunu "Atletiko Madrid"in 3:0 hesablı qələbəsi ilə başa çatıb.

# Güləşçimiz Turan Bayramov Avropa çempionu olub



Makedoniyanın Skopye şəhərində yeniyetmə güləşçilər arasında Avropa çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, çempionatda sərbəst güləşçilərin yarışları başa çatıb. Yığma komandamızın üzvləri çempionatı 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurublar. Bütün rəqiblərindən üstün olan Turan Bayramov (65 kq) çempionatın qızıl medalına yiyələnib. Qızıl medal qazanan Turan Bayramov həm də 65 kiloqram çəki dərəcəsində yeniyetmələrin III Olimpiya Oyunlarına vəsiqəni təmin edib. Yalnız final görüşündə uduzan Fuad Mayılov (80 kq) və İslam Abuyev (110 kq) isə gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Kənan Heybətov (45 kq) və Əlihəsən Əmirli (48 kq) qazandırıblar. Bu nəticə ilə yığmamız komanda hesabında çempionatı Rusiya, Gürcüstan və Türkiyədən sonra dördüncü sırada başa vurub. Ancaq nə Türkiyə, nə də Gürcüstan komandaları Olimpiya Oyunlarına vəsiqə qazana bilməyiblər.

# Buffon "Yuventus"dan gedir

Canluici Buffon "Yuventus"dan ayrılır. SİA-nın məlumatına görə, 40 yaşlı qapıçı dünən keçirdiyi mətbuat konfransında bu barədə açıqlama verib. Futbolçu bildirib ki, A Seriyasının son turunda "Verona" il görüş onun "Yuventus"da sonuncu matçı olacaq. Lakin Buffon ona təkliflərin gəldiyini və karyerasını başa vurub-vurmaması ilə bağlı qərarını növbəti həftələrdə açıqlayacağını deyib.

Qeyd edək ki, Buffon 2001-ci ildə "Parma"dan "qoca-sinyora"ya keçmişdi. İtaliya millisinin üzvü "Yuventus"da 655 oyun keçirib və 20 kubok qazanıb.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**